AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

Elmar Məhərrəmov
Aynur Məhərrəmli

XALQ QƏZETİ
GÜNDƏLİK İCTİMAİ - SİYASİ QƏZET

# YARANMASI VƏ İNKİŞAFI TARİXİNDƏN

Nəşrinin 90 illiyi münasibətilə

Bakı – "Elm və təhsil" – 2009

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Elmi Şurasının qərarə ilə çap olunur*

Elmi redaktoru:
tarix elmləri doktoru, professor **T.H.Musayeva**

Rəyçilər:
tarix elmləri doktoru, professor **D.H.Qüdrətov**
tarix elmləri namizədi, dosent **V.S.Həsənov**

**Məhərrəmov E.Ə., Məhərrəmli A.E.**
**«Xalq qəzeti»nin ("Kommunist") yaranması və inkişafı tarixindən**. Nəşrinin 90 illiyi münasibətilə. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2009, 88 s.

Əsər "Kommunist" qəzetinin – indiki "Xalq qəzeti"nin yaranması və erkən fəaliyyəti dövrünə, xüsusilə də onun ərəb əlifbası ilə nəşr olunduğu dövrün (1919-1929-cu il yanvarın 1-ə kimi) tədqiqinə həsr olunub. Xalqımızın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış "Kommunist" qəzetinin fəaliyyəti tariximizin, mədəniyyətimizin, bugünkü mükəmməl dilimizin parlaq bir səhifəsidir. Onunla fəxr etməyimizə dəyər.

M $\frac{0504030000\text{-}201}{N0982009}$

© ***Məhərrəmov E.,***
***Məhərrəmli A., 2009***

## Sözönü

Xalqımızın XX yüzillikdə keçdiyi son dərəcə mürəkkəb və o qədər də şərəfli tarixi yol hələ də özünün obyektiv tədqiqini gözləyir. Bununla əlaqədar olaraq ümummilli liderimiz, görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin 1996-cı il aprelin 6-da ümumxalq nümayəndələri toplantısında «Xalqın birliyi və həmrəyliyi dövlətçiliyimizi daha da möhkəmləndirməyin həlledici amilidir» adlı yekun nitqində söylədiyi kimi «Azərbaycanın çoxəsrlik tarixi var. ... XX əsr bəşər tarixində çox görkəmli yer tutur. Hər bir ölkə, hər bir xalq XX əsrdə öz xalqı, ölkəsi üçün nələr əldə etdiyini, nələr itirdiyini əsrin sonuna qədər yekunlaşdırmalıdır. Biz Azərbaycanın XX əsr tarixini yazmalıyıq. XX əsrdə keçdiyimiz yolu araşdırmalıyıq, tədqiq etməliyik. Nə əldə etdiyimizi, nə itirdiyimizi müəyyən etməliyik. Bu, bizim ümumi vəzifəmizdir. Alimlərimizin, tədqiqatçılarımızın qarşısında duran vəzifədir. Biz bunu etməliyik» (Əliyev H. Xalqın birliyi və həmrəyliyi dövlətçiliyimizi daha da möhkəmləndirməyin həlledici amilidir. 1996-cı il aprelin 6-da ümumxalq nümayəndələri toplantısındakı yekun nitqi // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. B., Azərnəşr, 1998, səh. 77; Azərbaycan, 1996, 9 aprel).

Yaşadığımız mərhələnin mühümlüyü barədə danışan ümummilli liderimiz Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın aparıcı alimləri ilə görüşündəki nitqində qeyd edirdi ki, «70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmalıdır. Bizim tarixçiləimiz bir tərəfdən çəkişmə ilə məşğul oldular, hərə öz konsepiyasını irəliyə aparmağa çalışdı. Amma Azərbaycanın tarixi yazılmalıdır. Alimlərimizin, tarix-

çilərimizin günahımdan yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideoloqiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz" (Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın aparıcı alimləri ilə görüşündə nitqindən // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Səkkizici kitab. B., Azərnəşr, 1998, səh. 367; Azərbaycan, 1997, 1 fevral).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dəfələrlə Azərbaycan tarixinin, o cümlədən XX əsr tarixinin hərtərəfli tədqiqinə diqqət yetirilməsini vurğulayıb.

Ümummilli liderimiz Heydər Əliyevin haqlı iradından sonra tarixçilərimiz 7 cildlik "Azərbaycan tarixi"ni nəşr etdirdilər. Bir çox qaranlıq məqamların üzərinə işıq saldılar. Amma bu "qaranlıq məqamlar" o qədər çoxdur ki, onların yeni baxımdan ideologiyasız, ətraflı və obyektiv tədqiqinə hələ uzun illər vaxt lazım olacaq.


"Xalq qəzeti" indi bu binada yerləşir

Azərbaycan tarixinin ən zəngin dövrlərindən biri olan 1920-1928-ci illər ölkədə xalq təsərrüfatının bərpasını əhatə edən dövrdür. Bu dövrdə xalq təsərrüfatının bərpasını ümumən müsbət qiymətləndirməklə hesab edirik ki, Azərbaycan Respublikasının bugünkü gerçəkliyi tədqiqatçılarımızın qarşısında xalq təsərrüfatının bərpasını, mədəniyyət və maarifin, əhalinin intellektual səviyyəsinin inkişafını hərtərəfli öyrənməyə imkan verən tədqiqat əsərləri yaratmaq vəzifəsini qoyur.

20-ci illərin tarixi təcrübəsinin öyrənilməsinin elmi-nəzəri və praktiki aktuallığı həmin illərlə bu günümüzün qarşısında duran vəzifələrin keçid dövrü üçün xarakterik olan dağılmış xalq təsərrüfatının bərpası, dövlət strukturlarının tək-

milləşdirilməsi, siyasi və iqtisadi suverenliyin möhkəmləndirilməsi, sərfəli xarici siyasət və xarici iqtisadi əlaqələrin qurulması, mədəniyyət sahəsində zəruri tədbirlərin həyata keçirilməsi, ölkənin müdafiə qabiliyyətinin, xüsusilə də indiki erməni təcavüzü və böyük dövlətçilik iddialarından çıxış edən Rusiya və İran kimi qonşuların Azərbaycana qarşı müxtəlif səpgili iddialarının mövcudluğu ilə müəyyən edilir.

Ərzaq və sənaye mallarının yerli istehsalının kəskin çatışmazlığı və qiymətlərin son dərəcə baha olması şəraitində yeni yanaşma metodları əsasında qərəzsiz olaraq 20-ci illərin bərpa, mədəni quruculuq və repressiyalar tarixinin öyrənilməsinin bugünkü tariximiz üçün böyük siyasi, nəzəri və praktiki əhəmiyyəti var. Məhz indi – siyasi müstəqillik şəraitində xalqımızın yerli istehsal məhsulları ilə tam təmin edilməsi məsələsi tam kəskinliyi ilə gündəlikdə durur. Bu məsələnin həllində xalq kütlələrinin ideya-siyasi fəallığının artırılmasında, onların şüuruna təsir edilməsində, ictimai fikrin – əfkari ümumiyyənin yaradılmasında, yeni həyatımızın qurulmasında xalqın güc və imkanlarının səfərbərliyə alınması və təşkilində qüdrətli vasitə sayılan mətbuatın təbliğat və təşviqat, eləcə də təşkilatçılıq rolunun öyrənilməsinin əhəmiyyəti çox vacibdir. Xüsusilə də indiki şəraitdə – gənc demokratik Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi prosesində milli dövlətçilik və iqtisadi inkişaf siyasətinin təbliği və realizasiyasında mətbuatın rolunun əhəmiyyəti son dərəcə böyükdür. Əfsuslar olsun ki, bu gün dövlət və bir neçə müstəqil mətbuat vasitəsi istisna olmaqla, qalanları bu sayaq mühüm təbliğatdan uzaq olub, dedi-qodu, münasibətləri araşdırma və s. bu kimi işlərlə məşğuldur. Onların dilimizi bərbadlaşdırma baxımından "fəaliyyətlərinə" dair isə deməyə söz də tapılmır...

1921-1928-ci illərdə ölkəmizin xalq təsərrüfatının bərpası üzrə bir çox məsələrin həllində, iqtisadiyyat məsələlərinin təbliğ edilməsində AK(b)P MK və BK-nın orqanı olan «Kommunist» qəzeti (türk dilində – Azərbaycan dilində) az rol oynamamışdır. Yarandığı ilk gündən gərgin vəziyyətdə ölkədə qal-

mış vətənpərvər əhvali-ruhiyyəli ziyalıları ətrafında cəmləşdirən «Kommunist» qəzeti vətənimizin xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi, dövlət orqanları və mətbuatın nüfuzunun yüksəldilməsi uğrunda yorulmadan mübarizə aparırdı.

Öz dövrü üçün birinci rəsmi partiya və dövlət qəzeti olan «Kommunist» kütlənin siyasi və mənəvi tərbiyəçisi kimi fəaliyyət göstərirdi. Bu qəzet həmişə tarixi hadisələrin mərkəzində olmuş, xalq kütlələrinə müsbət təsir göstərmiş, respublikanın gündəlik həyatında baş verən bütün məsələlərin həllində siyasi rəhbərliyin mühüm təbliğat vasitəsi olmuşdur. Bir məsələni unutmaq olmaz ki, bu qəzet orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirməyə borclu idi, onun vəsaiti ilə nəşr olunurdu, amma bununla belə o milli təəssübkeşliyini heç vaxt unutmamış və həmişə bunun cəzasını çəkmişdir.

Qəzetin səhifələrində digər məsələlərlə yanaşı xalq təsərrüfatının bərpası və inkişafı məsələləri də mühüm yer tuturdu. Bu materialların öyrənilməsinin ölkəmizin müstəqilliyi şəraitində keçmişin səhvlərindən yaxa qurtarılması və indiki şəraitdə xalq təsərrüfatının bərpası və inkişafı sahəsində nəhəng proqramların yerinə yetirilməsində, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiya olunmasında, məşhur «İpək yolu»nun yenidən canlandırılmasında, respublikamızda aparılan möhtəşəm quruculuq işlərinin təbliğində onun müsbət təcrübəsindən faydalanılması üçün dəyəri böyükdür.

Ölkəmizin xalq təsərrüfatının yeni – keçmiş sovet respublikaları üçün qeyri-adi olan bazar iqtisadiyyatına keçid şəraitində, Rusiya hərbi və siyasi dairələrinin hərtərəfli dəstəklədiyi Ermənistanın təcavüzü ilə ərazilərimizin 20%-dən artığının itirilməsi şəraitində, bir milyondan artıq vətəndaşımızın qaçqına çevrildiyi və həm kənd təsərrüfatı, həm də sənayedə işçi qüvvəsi balansının pozulduğu, əkin sahələrinin, maldarlığın, üzümlüklərin və bağların sıradan çıxdığı bir şəraitdə 20-ci illərin xalq təsərrüfatının bərpası üzrə təcrübəsinin öyrənilməsi getdikcə daha da aktuallaşır. Bu məsələlərin həlli isə o dövr mətbuatının, xüsusilə də «Kommunist» qəzetinin tarixinin öy-

rənilməsi ilə həyata keçirilə bilər.

Təbii ki o dövrdəki bir çox statistik məlumatlar və faktiki materiallar yeni baxış və yeni analiz tələb edir. Həmin illərdə xırda müvəffəqiyyətlər şişirdilir, «Lenin milli siyasətində qələbə» kimi təqdim edilirdi. Bütün uğursuzluqlar isə respublika daxilində «millətçi burjua qruplaşmalarının təzahürü» kimi qələmə verilirdi və bu keçmiş tədqiqatlarda elə bu cür də təqdim edilirdi. Yalnız son illərdə nəşr olunan bir sıra əsərlərdə yeni baxışlar diqqəti cəlb edir. İlk belə nəşrlərdən E.İsmayılov, C.Həsənov və T.Qaffarovun XI sinif şagirdləri üçün yazdıqları «Azərbaycan tarixi» dərsliyini, T.B.Qaffarovun «Azərbaycan tarixi (1920-1921)» kitabını və F.İbişovun «Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930)» adlı fundamental monoqrafiyasını göstərmək olar.

Tədqiqatçılar müxtəlif mətbuat orqanlarına bir mənbə kimi kifayət qədər tez-tez müraciət edirlər. Bu qəbildən istər keçmiş ittifaq miqyasında, istərsə də Azərbaycan miqyasında xeyli tədqiqat işi aparılmış, bu və ya digər məsələnin işıqlandırılmasında mətbuatın rolu araşdırılmışdır. Azərbaycan mətbuatı, o cümlədən «Kommunist» qəzeti də ayrı-ayrı tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu qəbildən C.Məhərrəmlinin, N.İmanquliyevin, R.Bayramovun, Q.İsmayılovun adlarını çəkmək olar. «Kommunist» qəzetinin ərəb əlifbası ilə nəşr olunduğu dövr isə tam şəkildə yalnız bizim tərəfimizdən öyrənilmişdir. Tədqiqat prosesində heç bir arxivdə və digər mətbu orqanlarda olmayan, yalnız «Kommunist» qəzetinin səhifələrində özünə yer tapmış çox dəyərli faktlar və materiallar üzə çıxarılmışdır. Məsələn, tədqiqatçılar və oxucular tamamilə xəbərsizdirlər ki, uzun müddət təriflədikləri və indi də nostaljisini yaşadıqları sovet hakimiyyəti illərində – 20-ci illərdə bizimlə qonşu olanlarla bizim aramızda adicə vergi ödənişində böyük fərq var idi. Əgər, tutaq ki, 1923-cü ildə adambaşına bir gürcü 1 rubl 11 qəpik, erməni – 1 rubl 45 qəpik vergi ödəyirdisə, bir azərbaycanlı 2 rubl 32 qəpik ödəməli idi. Növbəti illərdə həmin rəqəm fərqi daha da artırdı. Ümumrespublika üzrə

vergiyə də nəzər salaq: qondarma Zaqafqaziya Federasiyasının illik vergisinin 51,7%-ni Azərbaycan, 37,7%-ni Gürcüstan, 10,6%-ni Ermənistan ödəməli idi. Əslində isə Azərbaycan həmişə vergini az qala ikiqat ödəmiş, Gürcüstan və Ermənistan isə bir dəfə də olsun vergi planını yerinə yetirməmişlər. Onların planı Azərbaycanın hesabına ödənilirdi. Zaqafqaziya Federasiyası büdcəsinin bölüşdürülməsində də həmişə Azərbaycana qarşı haqsızlıq edilib, ona çatası vəsaitlər Gürcüstan və Ermənistan arasında halal mal kimi bölüşdürülübdür. Təkcə 1923/24-cü təsərrüfat ilində aparılmış bölüşdürməyə əsasən büdcə vəsaitinin 55%-i Gürcüstanın, 35-40%-i Azərbaycanın (bu rəqəm qəsdən yayğın göstərilir), 11%-i isə Ermənistanın payına ayrılır. Əslində nəzərdə tutulan faizlər bir kənarda qalır, nəqd vəsaitlə bölgü isə belə aparılır: 254 min rubl Gürcüstana, 267 min rubl Ermənistana, 210 min rubl isə Azərbaycana verilir. Büdcədən əlavə ayrılmış 445 min rublun 435 min rublu Gürcüstan və Ermənistana, yerdə qalan 10 min rublu isə Azərbaycana dilənçi payı kimi verilir. Bir daha təkrar edirik ki, bu materiallar yalnız «Kommunist» qəzetinin səhifələrində saxlanılıb. Heç bir arxivdə belə məlumata rast gəlinmir. Üstəlik, bu məlumatı yazdığına görə «Kommunist» qəzeti dəfələrlə ciddi tənbeh edilmişdi.

«Kommunist» qəzeti qısa müddət ərzində bütün Cənubi Qafqazın aparıcı dövri nəşrlərindən birinə çevrilmiş, SSRİ-nin iri şəhərlərində və bir sıra xarici ölkələrdə xüsusi müxbirləri var idi.

Azərbaycanın bütün qəzalarında və şəhərlərində qəzetin müxbir məntəqəsi var idi. O dövrdə partiya və dövlət səviyyəsində hərtərəfli dəstəklənən fəhlə və kəndli müxbirləri də onunla fəal əməkdaşlıq edirdilər. Ölkədə və xaricdə baş verənlər haqqında gecə saat ikiyədək əldə edilən ən son məlumatlar qəzetin səhifələrində yerləşdirilirdi. Dövlət xadimləri, aparıcı şair və yazıçılar, jurnalistlər, istehsal qabaqcılları və b. tez-tez «Kommunist» qəzetinin səhifələrində çıxış edirdilər.

Qəzet üç abonementdə nəşr olunurdu, yəni abunə haqqının miqdarından asılı olaraq pulsuz, az ödənişli əlavələrə malik idi, üstəlik ödənişi kiçik hissələrlə üç dəfəyə həyata keçirmək mümkün idi. Müəllim, tələbə, qırmızı əsgər, kəndli və həmkarlar üzvlərinə güzəştlər edilirdi, yəni onlar qəzetin dəyərinin $^{1}/_{5}$-nin ödənilməsindən azad edilirdilər. Qəzet tərəfindən kənd təsərrüfatına dair nəşr olunan ədəbiyyat kəndlilər arasında pulsuz paylanılırdı.

«Kommunist» qəzeti özünün inkişafı və təkmilləşməsi üçün kifayət qədər çətin, lakin qısa bir yol keçmişdir, hərçənd respublika partiya rəhbərliyi tərəfindən ona qarşı həmişə qərəzli və ayrı-seçkilik mövqeyi tutulmuşdur, bununla belə, bu qəzet nüfuz baxımından o vaxtlar aparıcı sayılan və bütün hakimiyyət orqanları tərəfindən hərtərəfli dəstəklənən «Бакинский рабочий» qəzetinin səviyyəsinə yüksələ bilmişdi.

«Заря Востока» qəzeti 1924-cü il 7 may nömrəsində yazırdı ki, «Əgər türkcə «Kommunist» qəzeti nəşrinin əvvəlki illərində çox zəif idisə, indi, demək olar ki, bütün SSRİ-də ən yaxşı qəzetlərdən biridir».

Zəngin rəqəm və faktiki materiallara əsaslanan yeni mənbələrin ilk dəfə olaraq bizim tərəfimizdən elmi dövriyyəyə daxil edilməsi və onların hərtərəfli analizi sayəsində 20-ci illərdə «Kommunist» qəzetinin təşəkkülü və inkişafı mənzərəsi konkret faktlarla təsvir edilir.

## 1. İlk addımlar

Cəmiyyətin ictimai, mənəvi-tərbiyəvi və iqtisadi həyatında mətbuatın rolu və yeri çox böyükdür. Sovet hakimiyyətinin ilk illərində sovet mətbuatının təşəkkülü prosesində «Kommunist» qəzetinin səhifələrində yerli partiya komitələri və sovet orqanlarına, onların rəhbərlərinə (bəzən adları ilə), fəhlə və kəndli müxbirlərinə, bütün oxuculara ünvanlanan çağırışlar dərc edilir, yerli təcrübənin qəzet səhifələrində geniş və hərtərəfli işıqlan-dissertasiya işi-rılması üçün konkret məsələlər üzrə öz düşüncə, mülahizə və fikirləri ilə bölüşmələri təklif olunurdu.



“Kommunist” qəzetinin 1-ci nömrəsi

Sovet hakimiyyəti illərində qəzet minlərlə insanı öz ətrafında birləşdirmiş, onlarda gözəl gələcəyə və xoş əhvali-ruhiyyəyə inam oyatmış, ziyalılarımızın ən yaxşı nümayəndələrinin bilik və bacarığını öz ətrafında cəmləşdirmişdi. Qəzet ölkənin gündəlik hə-

yatından geri qalmamağa çalışırdı.

«Kommunist» qəzetinin ilk nömrəsi 1919-cu il avqustun 29-da, cümə günü bolşeviklər partiyasının gizli mətbəəsində 4 səhifədə çap olunmuşdu. Bu nömrə, demək olar ki, bütünlüklə dünya inqilabı məsələlərinə həsr olunub və dünya zəhmətkeşlərini inqilab uğrunda mübarizədə fəhlə sinfinin qabaqcıl rolunun daha da gücləndirilməsinə çağırışlara malikdir [tarixi ədəbiyyatda "Kommunist" qəzetinin ilk nömrəsinin redaktorunun kimliyi barəsində fikir ayrılığı mövcuddur. "Kommunist" qəzetinin tədqiqatçısı C.Məhərrəmli hesab edir ki, qəzetin redaktoru Ə.H.Qarayev olmuşdur, amma bu halda fikrini təsdiqləyən hər hansı bir dəlilə istinad etmir. Azərbaycan Sovet Ensiklopediyasının I və III cildlərində, «Azərbaycan Kommunist partiyasının tarixi oçerkləri»ndə (Баку, 1985, т. I, с. 429), Ruhulla Axundovun «Seçilmiş əsərləri»ndə (Bakı, 1977, s. 4, 17), "Kommunist-50" yubiley nəşrində (Bakı, 1969, s. 39) , Q.Mədətovun «Ruhulla Axundov» kitabında (Bakı, 1983, s. 14) və s. əsərlərdə göstərilir ki, "Kommunist" qəzetinin həmin sayının redaktoru Ruhulla Axundov olmuşdur. Qəzetin ilk və sonrakı nömrələrini müqayisə etdikdə, redaktə stilinə diqqət yetirdikdə, bu nəticəyə gəlmək olur ki, qəzetin ilk redaktoru Ruhulla Axundov olmuşdur.

1923-cü il mayın 26-da Azərbaycan K(b)P MK "Kommunist" qəzetinə təklif edir ki, bütün jürnalistlər və mətbuat işçiləri barəsində MK-nın Təbliğat-təşviqat şöbəsinə ətraflı məlumat versin. "Kommunist" qəzetinin o vaxtkı redaktoru Ruhulla Axundovun imzası ilə göndərilən geniş məlumatda onun özünün keçmiş jurnalistlik fəaliyyətindən bəhs olunarkən «Zəhmət sədası» (1917), «Bakı Şurasının əxbarı» (1918) və s. qəzetlərin nəşrində göstərdiyi xidmətləri sadalanır (ARPİİ SPİHDA, f. 1, siy. 235, iş 94, v. 174, 175). Amma həmin yazıda Ruhulla Axundovun "Kommunist" qəzetində işləməsi və hər hansı xidmət göstərməsi barədə cüzi eyham da yoxdur. Ruhulla Axundovun keçmiş xidmətlərini bütün təfərrüatı ilə sadaladığı nöqteyi-nəzərindən çıxış edərək, eləcə də özünə və şəxsi xid-

mətlərinə yüksək qiymət verdiyini nəzərə alaraq güman etmək olar ki, "Kommunist" qəzetində hansısa xidməti göstərmiş Ruhulla Axundov şübhəsiz, onları burada xüsusi qeyd etməli idi. Onun bunu təvazökarlıqdan etmədiyini düşünmək isə, ancaq sadəlövhlük olardı. Belə ki, o, elə həmin yazıda başqa jurnalistlər haqqında tamamilə fərqli rəylə çıxış etmişdir.

Ruhulla Axundov rəsmi olaraq Əli Heydər Qarayevi yalnız 1919-cu il avqustun 20-də RK(b)P Bakı Komitəsi Bürosunun qərarı ilə «Hürriyyət» qəzetində əvəz etmişdir (bax: ARPİİ SPİHDA, f. 2, siy. 22, iş 120, v. 25-26). Bununla belə güman edirik ki, "Kommunist" qəzetinin ilk sayı Ruhulla Axundov tərəfindən redaktə olunub].

Qəzetin müntəzəm nəşrinə 1920-ci il aprelin 30-dan başlanıldı. Ruslar Azərbaycanı işğal etdikdən sonra bolşeviklər «Azərbaycan» qəzetinin Kolyubakinski, 37 (indiki N.Rəfibəyli küçəsi) ünvanda yerləşən redaksiya və mətbəəsini tutub, onu «Revkomun mətbəəsi» (İnqilab komitəsinin mətbəəsi) adlandırdılar. Həmin mətbəəni 1921-ci il mayın 22-dən 4№-li mətbəə, 1924-cü ilin avqustundan isə «III İnternasional mətbəəsi» adlandırdılar. Türkcə «Azərbaycan» və rusca «Азербайджан» qəzetlərinin nəşri dayandırıldı, onların əvəzində əvvəlcə türkcə, bir neçə gün sonra - 1920-ci il mayın 1-dən isə həm də rusca «Kommunist» qəzetlərinin nəşrinə başlanıldı. Qəzetin başlığında göstərilirdi ki, o Sovet Respublikası Müvəqqəti Hərbi-inqilabi Komitəsinin və Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin nəşridir. Sonralar qəzet «Azərbaycan Sovet Sosialist hökuməti İnqilab Komitəsi fəhlə, kəndli, qızıl əsgər və dənizçilər Şurasının orqanı»na çevrildi. «Kommunist» qəzeti Azərbaycan K(b)P MK Siyasi və Təşkilat Bürosunun qərarı ilə 1921-ci il aprelin 13-dən Azərbaycan İnqilab Komitəsinin (Azrevkomun) və Bakı Sovetinin, «Azərbaycan füqərası» isə Azərbaycan K(b)P MK və BK-nın orqanı elan edildilər. I Sovetlər qurultayı tərəfindən Azərbaycan İnqilab Komitəsinin 1921-ci ilin mayından ləğv edilməsindən sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (AzMİK) təsis

edildi və bu dövrdən «Kommunist» qəzeti Azərbaycan K(b)P MK və BK-nın, AzMİK və Bakı Sovetinin, «Azərbaycan füqərası» isə Azərbaycan K(b)P MK-nın orqanı oldular və 1921-ci ilin sonlarında «Azərbaycan füqərası»nın adı dəyişdirilib «Azərbaycan xəbərləri» qoyuldu, amma təxminən bir ay sonra bu qəzetin nəşri tamamilə dayandı. Belə bir vəziyyətdə «Kommunist» qəzetinin daha da qüvvətləndirilməsi qərara alındı və 1922-ci ilin yayında AHİŞ-in mətbu orqanı olan «Zəhmət» qəzeti onunla birləşdirildi, qəzetin bütün vəsaitləri «Kommunist» qəzetinə verildi. Bu qəzetlərin birləşməsi 1922-ci il iyulun 1-də həyata keçirildi. Bununla əlaqədar «Kommunist» qəzetinin səhifələrində geniş təbliğat aparıldı.

Kağız qıtlığı ilə əlaqədar olaraq ilk vaxtlar «Kommunist» qəzeti kiçik həcmdə, 2 səhifədə, müxtəlif rəngli, üzərində çoxlü nöqtələri və kiçik xətləri olan aşağı keyfiyyətli bükü kağızında çap edilirdi ki, bu da nöqtə və xətlərin sayından tam asılı olan ərəb əlifbasında nəşr olunan qəzetin oxunuşunu xeyli çətinləşdirirdi. Üstəlik həmin illərdə ərəb əlifbası ilə mətn yığan linotip maşınları yox idi, qəzetin bütün səhifələri əl ilə, boşluqlar da nəzərə alınmaqla hərf-hərf yığılırdı və bunun da nəticəsində, təsadüfən də olsa, mətndə səhvlərə yol verilirdi, sözlərin, bəzən də bütöv cümlənin mənası dəyişirdi. Qəzetin əməkdaşları – həm jurnalistlər, həm də fəhlələr isə rusca nəşr olunan qəzetlərin işçilərinin sayından az idilər, onların aldıqları məvacib də rəsmi olaraq rusca nəşr olunan «Бакинский рабочий» və «Kommunist» qəzetlərinin əməkdaşlarının məvaciblərindən bir neçə dəfə az idi.

Qəzetin ayrı-ayrı natamam komplektləri M.F.Axundov adına Dövlət Kitabxanasında, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxivlər İdarəsinin, Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin, Bakı Dövlət Universitetinin, Azərbaycan MEA Azərbaycan Tarixi Muzeyinin kitabxanalarında, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında, Azərbaycan MEA Əlyazmalar İnstitutunda saxlanılır. Bütün komplektlərdə onlarla nömrələr çatış-

mır, bəzən isə ayrı-ayrı illər üzrə nömrələr tapılmır. Qəzetin nisbətən tam komplekti Moskvada keçmiş Lenin adına kitabxanada saxlanılır. Qəzetin 1920-1928-ci illər üzrə bir neçə komplekti tədqiqatçı C.Məhərrəmli tərəfindən «Kommunist» qəzetinin redaksiyasında aşkar edilmiş və 1964-cü ildə Azərbaycan KP MK-nın qərarına yğun olaraq Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasına verilmişdi.

## 2. Redaktorlar

20-ci illərin əvvəllərində «Kommunist» qəzetinin redaktorları çox tez-tez vəzifələrindən uzaqlaşdırılır, başqaları ilə əvəz edilirdilər. Bu, yüksək dairələrdə mövcud olan intriqalarla, dedi-qodularla bağlı idi. Aşağıdakı cədvəldə redaktorların təyin edilməsi və işdən çıxarılması ardıcıllığını canlandırmağa çalışmışıq:

*Redaktorların fəaliyyəti cədvəli*

(Məlumatlar arxiv sənədlərindən və «Kommunist» qəzetinin 1920-ci il aprelin 30-dan 1928-ci il dekabrın 31-dək olan nömrələrindən götürülmüşdür)

| №№ | Soyadı, adı, atasının adı | Nə vaxtdan | Nə vaxtadək |
|---|---|---|---|
| 1 | Qarayev Ə.H. | 30.04.1920 | 19.08.1920 |
| 2 | Yusifzadə A.B. | 20.08.1920 | 29.03.1921 |
| 3 | Talıblı B.A. | 30.03.1921 | 15.04.1921 |
| 4 | Redaksiya heyəti | 18.04.1921 | 16.10.1921* |
| 5 | Cəbiyev H.P. | 02.05.1921 | 02.01.1922 |
| 6 | Qarayev Ə.H. | 03.01.1922 | 18.04.1922 |
| 7 | Redaksiya heyəti | 19.04.1922 | 18.05.1922** |
| 8 | Axundov R.Ə. | 19.05.1922 | 19.07.1923 |
| 9 | Cəbiyev H.P. | 20.07.1923 | 23.07.1923 |
| 10 | Redaksiya heyəti | 24.07.1923 | 11.10.1923*** |
| 11 | Cəbiyev H.P. | 11.10.1923 | 17.03.1924 |
| 12 | Qarayev Ə.H. | 18.03.1924 | 09.05.1924**** |
| 13 | Cəbiyev H.P. | 10.05.1924 | 27.07.1927 |
| 14 | Redaksiya heyəti | 23.07.1927 | 20.11.1927 |
| 15 | Qasımov Y.İ. və Triniç Ə. | 21.11.1927 | 1931 |

* Qəzet 1921-ci il aprelin 18-dən oktyabrın 16-dək «Redaksiya heyəti» imzası ilə çıxıb, lakin Azərbaycan K(b)P MK-nın siyasi və təşkilat

şöbəsinin 1921-ci il mayın 2-də keçirilən iclasında göstərilir ki, "Azərbaycan füqərası" və türkcə "Kommunist" qəzetinin redaktoru vəzifəsinə H.Cəbiyev təyin edilir.

** Qəzet 1922-ci il aprelin 19-dan mayın 18-dək «Redaksiya heyəti» imzası ilə çıxıb, 1922-ci il aprelin 18-də isə Azərbaycan K(b)P MK Rəyasət Heyəti Ruhulla Axundovu qəzetə redaktor təyin edib.

*** Azərbaycan K(b)P MK-nın qərarına uyğun olaraq 1923-cü il avqustun 20-dən 1923-cü il oktyabrın 7-dək qəzetin redaktoru Həbib Cəbiyevi Məmməd Səid Ordubadi və Əhməd Triniç əvəz etmişlər.

**** Azərbaycan K(b)P MK Rəyasət Heyəti 1924-cü il martın 17-də Ə.H.Qarayevi, 1924-cü il mayın 10-da isə H.Cəbiyevi redaktor təyin etmişdir, qəzet isə 1924-cü ilin aprelində də H.Cəbiyev tərəfindən imzalanmışdır.

***** 1927-ci ilin yazı və yayında H.Cəbiyev Almaniyada – San-Byazendə müalicə olunurdu, amma qəzet həmin dövrdə də onun imzası ilə nəşr olunurdu.

Qəzetin birinci rəsmi redktoru vəzifəsinə Əli Heydər Qarayev, məsul katib vəzifələrinə isə – Seyid Cəfər Cavadzadə (Pişəvəri) və Nemət Bəsir Hacıyev təyin edilmişdilər.



Ə.H.Qarayev

Ə.H.Qarayev bir neçə dəfə fasilələrlə qəzetin məsul müdiri (redaktoru) təyin edilmiş, bəzən də Azərbaycan K(b)P MK-nın göstərişi ilə sadəcə olaraq qəzetə nəzarət etmiş, bir növ, senzor funksiyasını yerinə yetirmişdir. Çox ziddiyyətli bir şəxs olan Ə.H.Qarayev ilk vaxtlar hərbi-dövlət işləri və siyasi intriqalarla daha çox məşğul idi. Buna görə də «Kommunist» qəzetindəki iş bir qədər ikinci plana keçmişdi. Lakin o, qəzetə ikinci dəfə redaktor təyin olunduqdan sonra (1922-ci il yanvarın 3-dən mayın 18-dək) «can-başla işə qoşularaq» həm redaksiyada, həm də ümumiyyətlə jurnalistlər

arasında «millətçi»ləri – Azərbaycan ziyalılarının ən yaxşı nümayəndələrini axtarıb-tapıb, təqib etməyə başladı.

Ə.H.Qarayev sonralar da belə işlərlə məşğul olmuşdu. Məsələn, 1922-ci il martın 2-də o vaxtkı daxili işlər xalq komissarı Həmid Sultanovun «Yoxsul» imzası ilə məqaləsi dərc olunmuşdu. Məqalədə 1912-ci ildən 1922-ci ilə qədər Azərbaycandan Rusiyaya aparılan konkret məhsullar haqqında arxiv sənədlərinə əsaslanan məlumat verilirdi. Eyni zamanda göstərilirdi ki, aparılan çeşidli məhsulların əvəzində Rusiyadan Azərbaycana ərzaq məhsulları adı ilə qapısı möhürlü boş vaqonlar gətirilirmiş. Əvvəllər belə şeylərin mövcudluğundan xəbərsiz olan müəllif ümidlə bildirirdi ki, guya sovet hakimiyyəti illərində daha bu sayaq hallara yol verilməyəcək. Ertəsi gün – 1922-ci il martın 3-də Azərbaycan K(b)P MK-nın Siyasi Bürosunun xüsusi iclasında H.Sultanov tutduğu vəzifədən azad edildi və elə iclasdaca həbs olundu. Ə.H.Qarayev isə «ilan yuvası» olan «Kommunist» qəzeti redaksiyasını «millətçi ünsürlərdən təmizləmək» üçün növbəti tapşırıq aldı.

1924-cü il aprelin 18-də Azərbaycan K(b)P MK-nin ikinci katibi, 27 yaşlı gənc vətənpərvər Əyyub Xanbudaqov «Kommunist» qəzetində «Milli məsələyə dair» adlı məqalə ilə çıxış etdi və bildirdi ki, partiyanın milli məsələyə dair göstərişləri yerinə yetirilmir, əksinə Azərbaycanda milli fəhlə kadrlarının hazırlanmasının qarşısı alınır, azərbaycanlılar fabrik və zavodlarda ayrı-seçkilik nəticəsində işə qəbul edilmirlər və bununla da milli məsələ nəzərdə tutulanın 0,01%-i qədər də yerinə yetirilməyib.

Cəmi bir neçə gün sonra – 1924-cü il aprelin 27-də öz işinə başlayan XIII Bakı partiya konfransı gündəlikdəki məsələləri unudub, iki günlük işini Əyyub Xanbudaqovun «millətçiliyini» araşdırmağa həsr etdi və Ə.H.Qarayevə tapşırıldı ki, «Kommunist» qəzetinin redaksiyasında kök salmış sovet hakimiyyəti düşmənlərini – millətçiləri üzə çıxarıb tapsın.

Ə.H.Qarayev qəzetin redaktoru Həbib Cəbiyevi müəyyən müddətə tutduğu vəzifədən kənarlaşdırıb, sözün tam mənasında

redaksiyanı yüksək mədəniyyətli Azərbaycan ziyalılarından təmizləməyə başladı. O, ziyalıların bir çoxunu xırda burjuaziyanın əlaltısı adlandırmış, bir qismini işdən qovmuş, bir qismini isə tənbeh etmişdi. Ə.H.Qarayevin güdazına gedənlər arasında Əbdürrəhim bəy Haqverdiyev, Salman Mümtaz, Akif Səfvət, Cahangir Nağıyev, Ağababa Yusifzadə, Cəfər Cabbarlı, Mir Seyfəddin Kermanşahlı və b. var idi.

Bununla belə, Ə.H.Qarayev eyni zamanda ən məhsuldar müəlliflərdən biri idi və müxtəlif mövzularda olan yazıları ilə tez-tez qəzet səhifələrində çıxış edirdi.

Qəzetin ikinci rəsmi redaktoru Ağababa Yusifzadə olmuşdur (1920-ci il avqustun 20-dən 1921-ci il martın 29-a kimi). O, təkcə «Kommunist» qəzetinin əməkdaşları və müxbirlərinin deyil, həm də Azərbaycanın bütöv bir nəsil jurnalist kadrlarının tərbiyə edilməsi və hazırlanmasında böyük rol oynamışdır. O, eyni zamanda jurnalistika və stenoqrafiya kurslarının da direktoru idi. 1921-ci il martın sonlarında Ağababa Yusifzadəyə böhtan atılaraq arvadını öldürməkdə günahlandırılır və məsuliyyətə cəlb edilir, lakin xeyli sonralar bəraət alır.


B.Talıblı

Qəzetin üçüncü rəsmi redaktoru Böyükağa Talıblı idi (1921-ci il martın 30-dan 1921-ci il aprelin 15-dək). B.Talıblı xalq ədliyyə komissarı vəzifəsinə təyin edildiyindən qəzetdən getmiş, lakin onunla əməkdaşlığını davam etdirmişdir.

Qəzetin ən populyar redaktoru Həbib Cəbiyev olmuşdur. O, 4 dəfə fasilələrlə (1921-ci il mayın 2-dən 1922-ci il yanvarın 2-dək, 1923-cü il iyulun 20-dən 23-dək, 1923-cü il oktyabrın 11-

dən 1924-cü il martın 17-dək, 1924-cü il mayın 10-dan 1927-ci il iyulun 27-dək) bu vəzifəyə təyin olunmuşdu.



H.Cəbiyev

Həbib Cəbiyevin sayəsində qəzet bütün sahələrdə inkişaf etmiş, respublikanın rəhbər dairələrini ona diqqət yetirməyə və onunla hesablaşmağa məcbur etmişdir. Cəbiyev cəsarətli rəhbər idi və tez-tez polemik məqalələr dərc edirdi ki, bunlar da dəfələrlə onun müəyyən müddətə işdən kənarlaşdırılmasına səbəb olmuşdur. Yuxarıda qeyd edildiyi kimi, Həbib Cəbiyev 1924-cü ilin aprelində Azərbaycan K(b)P MK katibi Ə.Xanbudaqovun məlum məqaləsini dərc etdikdən sonra «yuxarıların» intriqaçı dəstəsi – S.M.Kirov, L.Mirzoyan, Ə.H.Qarayev, D.Bünyadzadə və başqaları milli özünüdərkin inkişaf etdirilməsini istəyən Azərbaycan ziyalılarına qarşı açıq və güclü hücuma keçdilər. Milli ziyalılar millətçilikdə və pantürkizmdə günahlandırılırdılar. Onlardan tələb olunurdu ki, milli vətənpərvərliyi ümumittifaq vətənpərvərliyi ilə əvəz etsinlər, ümumittifaq kosmopolitizminə keçsinlər və açıq elan etsinlər ki, onların bir ümumi vətənləri var, o da SSRİ-dir.

Həbib Cəbiyev 1926-cı ilin ikinci yarısından «böhtançı üçlükdən» – Levon Mirzoyan, eləcə də ona əlaltılıq edənlər: Əli Heydər Qarayev və Dadaş Bünyadzadədən çəkinməyə başlayır.

Bu üçlük 1927-ci ildə müvəqqəti olaraq Mircəfər Bağırov kimi qüdrətli rəqib üzərində qələbə çaldıqdan sonra isə Həbib Cəbiyev öz millətçilik əqidəsindən tamamilə əl çəkir və «Kommunist»in səhifələrində tanınmış şair və yazıçıların, publisistlərin yazılarının dərc olunması nadir hadisəyə çevrilir. Hətta, bu dövrdən etibarən Həbib Cəbiyevin özü də «təhlükəli türk millətçiliyi»nin təzahürlərindən yazmağa başlayır. İndi qəzetin bütöv səhifələri beynəlxalq mövzulara və reklamlara

həsr edilir, səhifələrin nə iləsə doldurulmasına çalışılır. Hətta ən yaxşı fəhlə və kəndli müxbirlərinin, ziyalıların nümayəndələrinin yazıları qəzalar üzrə icmal şəklində dərc edilir. Tanınmış ziyalı müxbirlərin bir çoxu «Kommunist» qəzetindən soyuyub, daha ona yazı göndərmirlər. Bunlardan Murtuza Nağıyevi, Əhməd Rəcəblini, Əliağa Vahidi, Əli Vəliyevi, Əfrasiyab Bədəlbəylini və b. göstərmək olar. Bu dövr «Kommunist» qəzetinin böhranlı dövrü idi.

Lakin ehtiyatlanmaq Həbib Cəbiyevi xilas edə bilmədi. 1927-ci ilin yazında o, hücumlara məruz qaldı və bu dəfə birdəfəlik olaraq qəzetdən uzaqlaşdırıldı. Özünün, dostlarının və qohumlarının dəfələrlə Azərbaycan K(b)P MK-ya müraciətindən sonra ağır vərəm xəstəliyindən müalicə olunmaq üçün ona cüzi miqdarda vəsait ayrıldı.


R.Axundov

Qəzetin beşinci redaktoru Ruhulla Axundov olmuşdur (1922-ci il mayın 19-dan 1923-cü il iyulun 19-dək). O, yaxşı tərcüməçi və redaktor idi, amma daha çox MK-da işləməyə meylli idi və onun MK-ya göndərdiyi çoxsaylı yazılı ərizələri bunu sübut edir.

1927-ci il noyabrın 21-dən qəzeti Yusif Qasımov və Əhməd Triniç birlikdə redaktə etməyə başladılar. Rəsmi olaraq Y.Qasımov redaktor təyin edilmişdi, əslində isə onun redaksiyadakı işi hiss olunacaq əhəmiyyətə malik deyildi və işin bütün ağırlığı əvvəllər qəzetin məsul katibi olmuş, indi isə redaktorun müavini təyin edilən Ə.Triniçin (təxəllüsü – «Bədi») üzərinə düşmüşdü. Qəzeti onların hər ikisi birlikdə imzalayırdılar. Triniç əslən albaniyalı idi və İstanbulda universitet təhsili almışdı. Partiya fəallarından idi, kommunizm ideyalarına fanatikcəsinə inanırdı, sərt tədbirlər tərəfdarı idi. Öz məqalələrində ehtiyatsızlıq ucbatından cüzi qeyri-bolşevik deyimlər işlətmiş şəxsləri tam kəskinliyi ilə tənqid edirdi və onların

güdaza getmələrində günahı az olmamışdı.



Y.Qasımov

Redaktorlar, bir qayda olaraq, Azərbaycan K(b)P Mərkəzi Komitəsi tərəfindən təyin olunurdular. İlk dövrlər üçün təyinatlar barədə məlumatı yalnız qəzetin öz səhifələrində tapmaq mümkündür. Redaktorun təyin edilməsi barədə erkən dövr arxiv sənədi C.Məhərrəmli tərəfindən Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində (ARPİİ SPİHDA) aşkar edilmişdi. Bu, Həbib Cəbiyevin «qəzetə məsul müdir təyin edilməsi» barədə Azərbaycan K(b)P MK-nın Siyasi və təşkilat bürosunun 1921-ci il 2 may tarixli protokoludur.

ARPİİ SPİHDA-də "Kommunist" qəzetinə aid saxlanılan ən erkən sənəd 1920-ci il mayın 27-si tarixinə aiddir və ilk dəfə bu sətirlərin müəllifləri tərəfindən aşkar edilərək elmi dövriyyəyə daxil edilmişdir.

Azərbaycan K(b)P Mərkəzi Komitəsi və Bakı Komitəsinın rəhbər dairələrində baş verən çoxsaylı dedi-qodu və intriqalar müxtəlif səviyyələrdə tez-tez kadr dəyişmələrinə səbəb olurdu. "Kommunist" qəzetində də belə idi – 1920-ci il mayın 30-dan 1922-ci il mayın 19-dək qəzetə 8 (səkkiz -!) redaktor təyin edilmişdir.

Bir sıra hallarda "Kommunist" qəzeti ilə bağlı sənədlərdəki məlumatlar bir-biri ilə kəskin ziddiyyət təşkil edir. Bəzən, redaksiyaya təyin edilmiş redaktor təkrar təyin edilir, yaxud da redaksiyaya çatmamış, başqası ilə əvəz edilirdi. Məsələn, Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürolarının 1922-ci il yanvarın 3-də birgə keçirdikləri iclasın 1 saylı protokolunda göstərilir ki, «Türkcə "Kommunist" qəzetəsinin müdiri Əli Heydər Qarayev, onun müavini isə M.S.Ordubadi təyin edilir». Azərbaycan K(b)P MK-nın Təşkilat

bürosunun 1922-ci il 28 yanvar tarixli iclasının 1 saylı protokolunda, yəni ilkin təyinatdan 25 gün sonra göstərilir ki, «Türkcə "Kommunist" qəzetəsinin müdiri Ə.H.Qarayev təyin edilir». Redaktorların dəyişdirilməsi məsələsi başqa sənədlərdə də öz əksini tapıb. Məsələn, Azərbaycan K(b)P MK Plenumunun 1923-cü il 16 mart tarixli iclasında R.Axundov redaktor təyin edilmişdir.

Tədqiq olunan dövrlə bağlı sonuncu dəyişdirilmə 1927-ci il iyunun 20-də Həbib Cəbiyevin tutduğu vəzifədən azad edilməsi və 1927-ci il noyabrın 19-da yeni redaktor – Yusif Qasımov və onun müavini Əhməd Triniçin təyin edilməsidir. Bir məsələni də qeyd edək ki, protokollarda göstərilən təyinatlarla qəzetin səhifələrində redaktorların özlərinin imzaları arasında da xeyli fərq var və bu, redaktorların 1920-1928-ci illərdəki fəaliyyətləri ilə bağlı yuxarıda göstərilən cədvəldən daha aydın görünür.

## 3. Qəzetin və redaksiyanın strukturu

Məhsuldar fəaliyyət göstərilməsi üçün digər atributlarla yanaşı, qəzetinin özünün strukturunun da böyük əhəmiyyəti var idi. Bu barədə məlumatı qəzetin öz səhifələrindən, əsasən də yubiley nömrələrindən əldə etmək mümkündür.

Yübiley günlərinə xüsusi nömrələr həsr edilirdi. 1923-cü il dekabrın 30-da qəzetin 1000-ci, 1927-ci il mayın 5-də isə 2000-ci nömrəsi çapdan çıxmışdır. 18 səhifədə və rəngli nəşr olunan mininci nömrənin «İdarəmizin güzgüsü» adlanan əlavəsində qəzetin özü barədə – strukturu, redaktorları, əməkdaşları, fəhlə-kəndli müxbirləri haqqında məlumat vardır.

Azərbaycan SSR, ZSFSR və SSRİ rəhbərləri, "Rote fane", "Humanite", «Правда», «Известия», «Заря Востока» və s. bu kimi bir çox xarici və sovet nəşrləri "Kommunist" qəzetini təbrik etmişdilər.



"Kommunist" qəzetinin 1000-ci sayının çıxması münasibətilə o "Qırmızı Əmək Bayrağı ordeni" ilə təltif edilmişdi

Yubileylə əlaqədar olaraq Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti Azərbaycanın zəhmətkeş kütlələrinin maarifləndirilməsi sahəsindəki fəaliyyətinə görə qəzeti 1923-cü il dekabrın 2-də «Qırmızı Əmək Bayrağı ordeni» ilə təltif etmişdi. Bundan əlavə, ona hökumət adından Xalq Komissarları Sovetinin vəsaitindən 10 min çervon rubl maddi yardım göstərilmişdir.

Bu sayda 1923-cü ilin on ayı ərzində alınmış və dərc olunmuş məqalələrin diaqramları, əməkdaşların və müxbirlərin və s. fotoşəkilləri də çap edilmişdir.

Qəzetin 2000-ci nömrəsi 12 səhifədə çıxmışdır. Bu sayda respublikanın həyatına dair, əməkdaşların iş şəraiti ilə bağlı, eləcə də alınmış və çap olunmuş məktublar barəsində mühüm məlumatlar vardır.

Bəzən yubiley günlərində qəzetin iki nömrəsi – səhər və axşam buraxılışları çıxırdı. Məsələn, 1927-ci il aprelin 28-də 6 səhifəlik səhər, 4 səhifəlik isə axşam nömrələri çıxmışdır. Həmin saylarda əsas etibarı ilə partiya-hökumət işçilərinin xatirələri çap olunmuşdur.

1923-cü ildə "Kommunist" qəzetinin strukturu




Qəzetin 11 şöbəsi var idi: partiya, zəhmətkeşlər sütunu, maarif, ədəbiyyat, Sovet Azərbaycanı, bədii, həmkarlar hərəkatı, yerli informasiya, mətbuat, qızıl əsgər həyatı, informasiya

(teleqraf).

“İdarəmizin güzgüsü” adlı yubiley əlavəsində qəzetin əməkdaşları və müxbirləri haqqında da məlumat vardır. Bundan əlavə, hər il mayın 5-də – kommunistlərin mətbuat günündə redaksiyanın əməkdaşları və işçilərinin iş şəraiti haqqında məlumatlar dərc edilirdi.

1923-cü ildə redaksiyanın strukturu

| | |
|---|---|
| Müdir (redaktor) müavini | Məmməd Səid Ordubadi |
| Məsul katib | Əhməd Triniç (Bədi) |
| Katibin müavini | Akif Kazım(ov) |
| Redaksiya heyəti | redaktor, M.S.Ordubadi, Ə.Triniç, Hənəfi Zeynallı |
| Partiya şöbəsi: | |
| müdir | Abdulla Şərif(ov) |
| müavin | Neymət Bəsir (Hacıyev) |
| katib | Balaqədəş Mürşüd Səttaroğlu |
| Zəhmətkeşlər şöbəsi: | |
| müdir | Məmmədqulu Əlixanov |
| katib | Xudadad bəy Əzizbəyli(ov)* |
| Qəza şöbəsi: | |
| müdir | Hacızadə |
| katib | Əliullah |
| Mətbuat şöbəsi: | |
| müdir | Əli Kərimzadə(ov) |
| Xarici informasiya: | |
| müdir | Süleyman Məlikov(zadə) |
| Xronika şöbəsi: | |
| müdir | Məmmədəli Səfərov |
| Rəssam | Əzim Əzimzadə |
| “Qızıl qələm” əlavəsinin katibi: | Əliabbas Müznib |
| “Əmələ darülfünunu” əlavəsinin redaktoru | Bəhram Bəhramov |

* Zəhmətkeşlər şöbəsinin katibi olan X.Ə.Əzizbəyli(ov) həm də tərcüməçi kimi işləyirdi. O, 1928-ci ildə Ruhulla Axundovun redaktəsi ilə nəşr olunmuş «Rusca-türkcə lüğət»in tərtibçilərindən biri olmuşdur. X.Ə.Əzizbəyov bircildlik «Azərbaycanca-rusca lüğət»in tərtibçisidir (Bakı, 1965).



Uzun müddət redaktor müavini işləmiş Məmməd Səid Ordubadi

Qəzetdə tərcüməçilər Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Seyid Hüseyn (Sadıqzadə), Seyid Cəfər Cavadzadə (Pişəvəri), eləcə də digər əməkdaşlar – Xəlil İbrahim(ov), A.Ağakişiyev, B(ağır).Hacızadə, (Əhməd) Hacınski, A.H.Dadaşov, Y.Yusifzadə, C(avad).Cavadlı, Əliağa Əlizadə, M.H.Mirmövsümov, Şövkət Məmmədov, Ə.P. Hüseynzadə, T. Məlikov, Hacı Səlim Səyyah (Qasımzadə), Fərhad Ağazadə, Qədir Heydərov, Əziz Nuri, Musa Şəmsəddinski, Əsəd Tahir(ov), S(ergey).İnqulov və b. da çalışırdı.



Qəzetin tərcüməçisi Ə.b.Haqverdiyev

Yuxarıda verilmiş natamam siyahıdan göründüyü kimi, qəzetdə tanınmış jurnalistlər, yazıçılar, şairlər çalışırdı. Qəzetlə əməkdaşlıq edən jurnalist və publisistləri də nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, Azərbaycan ədəbiyyatının, Azərbaycan ziyalılarının ən yaxşı və tanınmış xadimləri, hər cür təqiblərə və sıxışdırmalara

baxmayaraq, bu qəzetin ətrafında cəmləşərək, onu Cənubi Qafqazın ən yaxşı qəzetinə çevirə bildilər.

1924-cü ildə Tiflisdə Cənubi Qafqaz mətbuatının sərgisi

Qəzetin tərcüməçiləri


C.Cabbarlı


S.Hüseyn


S.C.Pişəvəri

keçirildi və "Kommunist" qəzeti ən yaxşı təmsil olunmuş qəzet kimi fərqləndirildi. Bununla əlaqədar olaraq, «Заря Востока» qəzeti 1924-cü il mayın 7-də yazırdı ki, «indi türkcə "Kommunist" qəzeti SSRİ-nin ən yaxşı qəzetlərindən biridir».

Qəzetlə əməkdaşlıq edən dövlət xadimləri və

Qəzetlə yaxından əməkdaşlıq edən dövlət xadimləri


N.Nərimanov


Q.Musabəyov


H.Sultanov


T.Şahbazi (Simurğ)

publisistlərdən Nəriman Nərimanov, Qəzənfər Musabəyov, Həmid Sultanov, Tağı Şahbazi (Simurğ), Müseyib Şahbazov,

Əliəkbər Heydərli, Zinətulla Nuşirəvanov, Əliağa Vahid, Hacıbaba Nəzərli, Əli Nazim, Cahangir Nağıyev, Mahmud Xanbudaqov, Əyyub Xanbudaqov, Mustafa Quliyev, Əhməd Rəcəbli, Rzaqulu Nəcəfov, Ənvər Qasımzadə, Murtuza Nağıyev və b. adlarını çəkmək olar. Azərbaycan ziyalılarının görkəmli nümayəndələri – Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov, Mirzə

Qəzetlə yaxından əməkdaşlıq edən şair və publisistlər



Ü.Hacıbəyov C.Məmmədquluzadə B.Çobanzadə Ö.F.Nemanzadə

Cəlil Məmmədquluzadə, Bəkir Çobanzadə, Salman Mümtaz Əsgərov, Ömər Faiq Nemanzadə, Əliabbas Müznib Mütəllibzadə həmişə təqiblərə məruz qalırdılar, bununla belə, “Kommunist” qəzeti ilə tez-tez əməkdaşlıq edirdilər. Həbib Cəbiyev bəzən riskə gedərək onlarla əməkdaşlığı davam etdirir və vaxtaşırı yazılarını qəzetdə dərc etdirirdi.

Qəzetdə çalışan işçilər arasında Məmməd Səid Ordubadiyə bərabəri yox idi. Gözəl yazıçı, tarixi romanlar müəllifi və şair olan M.S.Ordubadi eyni zamanda Azərbaycanın ən yaxşı publisistlərindən biri idi. «Yeni yol» qəzetinə redaktor təyin edilənədək (1922) Ordubadi hər gün, bəzən müxtəlif mövzularda yazılmış bir neçə məqalə ilə, özü də həm nəsr, həm də nəzmlə qəzetdə çıxış edirdi. M.S.Ordubadi digər qəzet və jurnallarda da tez-tez çap olunurdu. Amma, təəssüf ki, xalq arasında o, əsasən yazıçı kimi tanınır, jurnalistlik fəaliyyəti isə yalnız mütəxəssislərə – jurnalistlərə, filoloqlara bəllidir. Bu,

müəyyən mənada onunla bağlıdır ki, həmin illərdə mətbuatımız

Qəzetlə yaxından əməkdaşlıq edən alimlər və yazıçılar






M.Nağıyev Y.V.Çəmənzəminli Ə.Vəliyev Ə.Bədəlbəyli

indiki nəslin bilmədiyi ərəb, sonralar isə orta nəslin pis bildiyi latın əlifbası ilə nəşr olunurdu.

Qəzetlə yaxından əməkdaşlıq edən şair və publisistlər






H.Cavid Ə.Vahid H.Nəzərli Ə.Nazim

M.S.Ordubadi yazdığı baş məqalələrdə və felyetonlarda köhnəliyin qalıqlarına və cəhalətə qarşı mübarizə aparır, günün ən vacib məsələləri üzrə yazılar dərc etdirirdi. Onun iş günü səhər saat 8-dən axşam saat 8-ə qədər idi. Özünün 1923-cü il oktyabrın əvvəllərində AK(b)P BK-ya göndərdiyi məktublarının birində xahiş edirdi ki, iş günü 12 saat olmaqla redaksiyada saxlasınlar, təki əlavə kənar işlərdən azad etsinlər.

Onun yazdığı baş məqalələr, bir qayda olaraq, təxəllüssüz – Məmməd Səid Ordubadi, Məmməd Səid, M.S.Ordubadi, Ordubadi, M.S. imzaları ilə, şerləri, mənzum və nəsrlə olan «Xırda felyeton»ları, «Xırım-xırda» rubrikasındakı felyetonları "Hərdəm-xəyal", "Xırdavatçı", "Feljetonçu" təxəllüsləri ilə çap olunurdu. Sonralar, «Yeni yol» qəzetində redaktor işləyən M.S.Ordubadi, sözsüz ki, türk dilləri arasında ən mükəmməli sayılan müasir orfoqrafiyamızın formalaşmasında mühüm rol oynamışdır.

Redaksiyanın məsul katibinin müavini Akif Kazım da yaradıcı əməkdaşlardan idi. O, əsasən teatr və mədəniyyət, incəsənət və fəhlə-kəndli müxbirləri haqqında yazırdı. Yazılarını aşağıdakı imzalarla dərc etdirirdi: A.Kazım, A.Kazımov, A.Hüseynoğlu, Ayn [ع.], Ayın [آين.], Ayn Kaf [ک.ع.], Ayın Kaf [ک.آين.], K.Oğlu. Akif [عاكيف] Kazımla Əli [على] Kərimovun ad və soyadlarındakı ilk hərflərin eyni olması səbəbindən onları tez-tez bir-birləri ilə səhv salırlar. Lakin, bizim tərəfimizdən müəyyən edilmişdir ki, onların publikasiya mövzularının müxtəlif olması ilə bağlı hətta inisialları ilə də fərqləndirilmələri elə bir çətinlik törətmir.



Akif Kazım

Əli Kərimovun bu sahədəki fəaliyyətinin gur çağı 1923-1928-ci illərə aiddir. O, mətbuat şöbəsinin müdiri idi, respublikada mətbuatın durumu haqqında yazır, hər gün xarici (burjua) mətbuatını "Ayn Kaf" [ک.ع.] imzası ilə şərh edirdi ki, bunu da Akif Kazımın imzası ilə qarışdırmaq mümkün deyil. Ə.Kərimov 1928-ci ilin sonunda Azərnəşrin direktoru təyin edilir və bu dövrdən etibarən qəzet səhifələrində xarici (burjua) mətbuatın şərhi rubrikası gözə dəymir.

Qəzetin tanınmış əməkdaşlarından biri də müxtəlif vəzifələrdə çalışmış Süleyman Məlikov idi. O, əsasən respublika və qəza mətbuatının durumu haqqında yazır, eləcə də qəzetin

xüsusi müxbiri kimi qəzalara yollanaraq oradan partiya-həmkarlar, sosial-məişət və iqtisadi mövzularda məqalələr göndərirdi. Beynəlxalq və partiya mövzularında məqalələrini “Suleyman Məlikov”, “S.Məlikov”, qalan yazılarını isə “Əbu-l-hövl”, “Qəmişqulu”, “Damğa”, “Kənardan baxan”, “D.Oğlu”, “S.M.Oğlu”, “S.Məlikzadə”, “M-zadə”, “M-zadə S.”, “S.” və s. təxəllüsləri ilə çap etdirirdi.



S.Məlikov

Abdulla Şərifov partiya şöbəsinin müdiri idi. Onun Ayn [.ع], Ayn.Şərifov, Ayn.Şərif imzaları bir müddət “Kommunist” qəzetində işləmiş Əziz Şərifin imzaları ilə tez-tez qarışıq salınır. Belə qarışıqlıq həqiqətən də mövcuddur, belə ki, onların hər ikisinin eyni soyadı və adlarının ilk hərflərinin eyniliyi buna səbəbdir. Bundan əlavə, onların hər ikisi publikasiyalarında eyni dərəcədə kəskindirlər, buna görə də onların imzalarını fərqləndirmək çətindir.



Ə.Şərif

Balaqədəş Mürşüd Səttaroğlu partiya şöbəsinin katibi idi, redaksiyanın tapşırıqlarını can-başla yerinə yetirirdi; mənzum felyetonlar yazır və onları B.Mürşüd Səttaroğlu, M.Səttaroğlu, B.Mürşüd, Mürşüd, Balaqədəş, S.Oğlu M., Sam [سام], Təəssübkeş və s. təxəllüsləri ilə imzalayırdı. C.Məhərrəmli səhvən hesab edirdi ki, Balaqədəş (müəllif özü adını belə yazır – [بالا قدش], Məhərrəmlidə – Bala Qardaş – [بالا قارداش]) və Səttaroğlu ayrı-ayrı müəlliflərdir. Əslində isə Balaqədəş və Səttaroğlu eyni müəllifdir, o ki qaldı Bala Qardaşa, o, tamamilə başqa müəllifdir, soyadı isə Əliquluzadədir və “Kommunist” qəzetində çap olunmayıb.



Əzim Əzimzadə

Qəzetin ən yaxşı felyetonçularından biri Əliabbas Müznib Mütəllibzadə idi. O, əsərlərini və məqalələrini Ə.A.Müznib, "Babaiəmir", B.Ə., "Mürtəd" (sonuncu təxəllüsdən Əliağa Vahid də istifadə edirdi. O, yazılarını «Hacı Əqrəb» təxəllüsü ilə də imzalayırdı) imzaları ilə dərc etdirirdi.

Həm də ədəbi əməkdaşlar sayılan tərcüməçilər də çox məhsuldar işləyirdilər. Bunlar tanınmış yazıçılar Əbdürrəhim



H.Zeynallı



Ə.Müznib



S.Mümtaz

bəy Haqverdiyev, Cəfər Cabbarlı, Seyid Hüseyn, Xəlil İbrahim və başqalarıdır. Cəfər Cabbarlı əsasən Cim [جيم], Cim-Cim [.جيم.جيم], C. [.ج], C.C. [.ج.ج], C.Cabbarzadə, C.Cabbarlı və s. imzalarından istifadə edirdi. C.C. imzasından bəzi hallarda Cəfər Cavadlı da istifadə etmişdir. Seyid Hüseyn Sadıqzadə yazılarını «Hüseyn Sadıq» təxəllüsü ilə imzalayırdı. Xəlil İbrahim – X., X.İ. [.يا.خ], İ.X. [.اى.خ], Xəlil, Xəlil Əlif [.خليل ا], Xəlil Əlif-Mim [.خليل ا.م ], Əlif.X. [.ا.خ] və s. təxəllüslərdən istifadə edirdi. İmkanın məhdudluğundan digər əməkdaşlar haqqında yazmırıq.



Ə.Cavad



V.Xuluflu



M.Şəmsəddinski

## 4. Kadr hazırlığı

Əməkdaşlar və müxbirlər bilavasitə Azərbaycan K(b)P MK-nın rəhbərliyi altında hazırlıq keçirdilər. Bunun üçün MK-nın qərarına əsasən 1920-ci ilin may-ından ölkədə olan bütün jurnalistlərin və mətbəə işçilərinin qeydiyyatına başlanıldı, onların təkrar hazırlıq keçmələri üçün isə qısamüddətli kurslar və dərnəklər təşkil edildi. Belə dərnəklərdən biri "Kommunist" qəzetinin nəzdində təşkil olunmuşdu. Bu dərnəyə, başlıca olaraq mətbuata bilavasitə aidiyyəti olmayan xırda alverçilər və s. yazılmışdı və sonralar aydınlaşdı ki, onlar çörək və kişmiş payı almaq məqsədi ilə dərnəyə yazılıbmışlar. Yeni iqtisadi siyasətə keçilən kimi onlar kursları yarımçıq qoyub getdilər.



Mir Cəlal Paşayev

Respublika miqyasında 3 aylıq kurslar da təşkil olunmuşdu və onların dinləyiciləri digər məsələlərlə yanaşı publisistika, qəzet informasiyası, kütlə ilə ünsiyyət formaları, qəzet təsərrüfatı, qəzetin səhifələnmə texnikası, stenoqrafiya və s. əsaslarını öyrənirdilər. Tanınmış jurnalistlər, publisistlər, yazıçılar və b. dinləyicilərə mühazirə oxuyurdular. Bunların arasında Üzeyir bəy Hacıbəyov, Əbdürrəhim bəy Haqverdiyev, Əli Terequlov, Ağababa Yusifzadə, Mahmud bəy Mahmudbəyov, Xəlil İbrahim(ov), ər-arvad



Əli Terequlov

Xocamirovlar, ər-arvad Nuşirəvanovlar və b. var idi. Amma dinləyicilərin heç də hamısı çətinliklərə tab gətirmirdi. Yalnız entuziastlar axıradək tab gətirirdi. Bu kursların dinləyicilərindən Balaqədəş Mürşüd Səttaroğlu, Əbdürrəhman dayı, Paşazadə Cəlal (Mir Cəlal Paşayev) sonralar "Kommunist" qəzetində işləməyə başladılar, Şəfiqə xanım Əfəndizadə isə qəzetlə əməkdaşlıq etdi.



Şəfiqə xanım Əfəndizadə

Publisistika yaradıcılığı yalnız 1923-cü ildə hiss olunacaq səviyyədə canlanmağa başladı. Hər bir qəzetin ətrafında müəyyən qrup fəhlə və kəndli müxbirləri cəmləşirdi. Bu toplumlarda iki cərəyan diqqəti cəlb edirdi: bir tərəfdən – bu, müxbirlərin təbii (yəni, kortəbii) axını, digər tərəfdən isə rəsmi fəhlə-kəndli müxbirliyi idi.

Digər qəzetlərdən fərqli olaraq yalnız "Kommunist" qəzeti fəhlə-kəndli müxbirləri üçün kurslar təşkil etmiş, onlarla müşavirələr keçirmiş, öz fəhlə və kəndli müxbirləri ilə yaradıcılıq vərdişlərinin tərbiyə olunması üçün mütəşəkkil məşğələlər keçirmişdir ki, bunun da nəticəsində həmin fəhlə-kəndli müxbirlərinin bir qismi belə fəhlə-kəndli müxbirləri dərnəklərinin rəhbərlərinə çevrilmişlər. Bütövlükdə fəhlə və kəndli müxbirləri hərəkatı 1924-cü ildən daha geniş yayılmağa başladı.

## 5. Publikasiyanın əsas tematikası

Dərc olunan materiallar təsnif edilir və bir növü, qəzetdə respublika həyatının və partiyanın, dövlət və hökumət orqanlarının müxtəlif aspektlərini əks etdirən tərtibat strukturundan asılı olaraq digər yazılardan fərqləndirilirdi. Başqa qəzetlərdə olduğu kimi, "Kommunist" qəzetində də özünəməxsus rubrika və şöbələr sistemi yaradılmışdı ki,


گنجلر صحیفه‌سی

قادینلر صحیفه سی

قیرمزی عسکر صحیفه سی

قرمزی گنجلر صحیفه‌سی

زحمتکش قادینلر صحیفه‌سی


فعله دار الفنونی

فعله دار الفنوندن مقصد

کائنات نه‌در؟

Qəzetin "Fəhlə darülfünunu" əlavəsi

müəllifləri cəlb etməyə imkan yaradırdı. Zaman keçdikcə problemlər, mövzular, müəlliflər dəyişir, rubrikalar isə bir çox hallarda varisliyin rəmzi və daşıyıcısı kimi qalırdı.

"Kommunist" qəzetinin bir sıra daimi rubrikaları var idi. Bu rubrikalardan bir qisminin adını sadalamaq yerinə düşərdi: «Sovet Azərbaycanında», «Partiya həyatı», «Qəzalarda», «Kəndə doğru», «Pambıq cəbhəsində», «Neft cəbhəsində», «Həmkarlar hərəkatı», «Zaqafqasiya Federasyonunda», «Sovet Rusiyasında», «Şərq ölkələrində», «Dünya işçi hərəkatı», «Mətbuat», «Müxbirlərimizə», «Maarif», «Xırda felyeton», «Kəndli felyetonu», «Fəhlə felyetonu», «Teatr və musiqi», «Yeni yolla» (yeni əlifba haqqında), «Biblioqrafiya» və s.

Qəzet vaxtaşırı müəyyən konkret mövzu və istiqaməti olan əlavələr də nəşr edirdi. Bunlar aşağıdakılardır: «Fəhlə-kəndli qadın səhifəsi» (1921), «Əmələ darülfünunu», «Dilimizin islahı» (1922-1923), «Partiya həyatı», «Qız qalası», «Müxbirlik işi», «Qızıl qələm», «Məktəb» (1924), «Hökumətin əmr və qərardadları» (1925-1927), «Savadlı qızıl əsgər həyatı» (1924-1926), «Ədəbiyyat səhifəsi» (1924-1928), «Fəhlə-kəndli müfəttişliyi səhifəsi» (1926-1928), «Azərbaycan fəhlə-kəndli müxbirliyi» (1927-1928) və s.




Mövzu seçimində qıtlıq yoxdur




Yeni əlifba – yeni mədəniyyət

Qəzet mətnlərdə cüzi dəyişikliklər edilməklə iki nəşrdə çıxırdı və bundan asılı olaraq oxuyuculara yuxarıda sadalanan əlavə və səhifələrdən başqa qəzet tərəfindən nəşr olunmuş

pulsuz əlavələr – Lenin və Stalinin portretləri, bloknotlar, Şərq, Avropa, Asiya, Cənubi və Şimali Amerika, Cənubi Qafqaz və Sovet respublikalarının xəritələri, aylıq və illik təqvimlər, şəkilli işçi almanaxı, «M.P.Vaqif», «Nəşat Şirvani», «Məhəmməd Hüseyn xan Müştaq», «Qövsi», «Kərbəlayı İlahi Arif», «Q.b.Zakir», «Mirzə Şəfi Vazeh» və b. verilirdi.

## 6. Qəzetin maddi bazası, həcmi, tirajı

Məlum olduğu kimi, XX əsrin 20-ci illərində məvaciblər dərəcələr üzrə verilirdi. Az məvacib alanlara, eləcə də məktəblərə və kollektiv abunəçilərə qəzet böyük güzəştlər nəzərdə tuturdu. Məsələn, 6-9-cu dərəcələr üzrə maaş alanlar abunə üçün ildə 29 rubl 75 qəpik, 15-17 dərəcələr üzrə maaş alanlar üç ödənişlə 50 rubl ödəməli idilər. Kəndlilər üçün abunə üçüncü dərəcə (yəni aşağı) üzrə müəyyənləşdirilirdi. Bundan əlavə, redaksiya tərəfindən kənd təsərrüfatı üzrə nəşr olunmuş xüsusi ədəbiyyat abunəçi kəndlilərə pulsuz paylanılırdı. Təkcə 1925-1927-ci illərdə 12 adda belə kitabça çap olunmuşdu. Bunlardan aqronom-alim Əhməd Rəcəblinin «Gübrələr», «Əkin torpağı», V.Nikolskinin «Peyinin hazırlanması», A.P. adlı müəllifin «Pətəkləri necə saxlamalı», A.M. adlı müəllifin «İribuynuzlu heyvanlarda xəstəliklər» və s. kitabçaları pulsuz paylanılmışdı.

Dotasiyalar ayrılan dövrlərdə qəzet abunəçilərə maya dəyərindən iki dəfə ucuz qiymətə satılırdı. Belə ki, bir aylıq komplektin əlavələrlə birlikdə qiyməti 2 rubl 86 qəpiyə olduğu halda, hətta ən yüksək maaş alanlar da 1 rubl 25 qəpikdən artıq ödəmirdilər, az maaş alanlar isə daha cüzi xərclə qəzetlərini ala bilirdilər. Redaksiyanın smeta kəsirləri isə müxtəlif dövlət orqanları, müəssisə və təşkilatları tərəfindən ödənilirdi.

Fəhlə-kəndli müxbirləri abunə kampaniyalarında fəal iştirak edirdilər. Onların fəaliyyətini tənzimləyən qəzet qarşılarında konkret vəzifələr qoyur və hamısını yarışa çağırırdı. Yarışların nəticələri isə qəzetin səhifələrində işıqlandırılırdı. Qəzet yuxarı orqanlar, təşkilatlar, müəssisələr qarşısında məsələ qaldırır, abunə kampaniyasına yardım göstərmələrini xahiş edirdi. Məsələn, M.S.Ordubadinin imzası ilə dərc olunan «Qəzetimizin tirajı və oxucuları» məqaləsində AzMİK, Azərittifaq, Ərzaq və Səhiyyə




“Kommunist” qəzetinin 10 illiyi - 1929-cu il

komissarlıqları, Azərpambıq idarəsi kimi yuxarı orqan və təşkilatlara müraciət edilərək xahiş olnurdu ki aldıqları məhdud saylı qəzet nüsxələri ilə kifayətlənməyib, daha artıq nüsxəyə abunə olsunlar və artıq nüsxələri qəza və dairə müəssisə və təşkilatlarına yardım kimi göndərməklə həm qəzetin kəndli kütlələri arasında yayılmasına, həm də abunənin təşkilinə kömək etsinlər. Qəzet öz israrlığı sayəsində bu istəyinə nail olmuşdur. Əgər 1923-cü ilin noyabrında qəzetin 4050 nüsxə tirajından 900-ü qəzalarda yayılırdısa, 1925-ci ilin dekabrında 8800 nüsxə tirajın 4310 nüsxəsi, yəni tirajın təxminən yarısı qəzalara göndərilirdi. 1928-ci ildə isə tirajın ¾-ü qəzaların payına



“Kommunist” qəzetinin 20 illiyi - 1939-cu il

düşürdü.

Yeri gəlmişkən, həcm və tiraj haqqında… Əgər 1920-ci ildə qəzet kiçik həcmdə 2 səhifədə çap edilirdisə, 1922-ci ildə həcmi kəskin şəkildə böyüyüb 6, 8, 12, yubiley və bayram günlərində isə hətta 18-24 səhifədə nəşr olunurdu. Qəzetin formatı da böyümüşdü. Müqayisə üçün deyək ki, o indiki «Azərbaycan» və ya «Xalq qəzeti»ndən 5 sm uzun və 2 sm enli idi. Bu formatda qəzet 1926-cı il iyulun 9-a kimi nəşr olunmuşdur.

Təmiz minimal yığım 4320 vahidə bərabər idi. Bir dəfəlik tiraj orta hesabla 1920-ci ildə 9000 nüsxə (1921-ci il fevralın 13-dək qəzetin tirajı dövlət müəssisələrinin hesabına pulsuz paylanılırdı), 1921-ci ildə – 3500 nüsxə (1921-ci il fevralın 15-dən qəzetin pullu yayıma keçməsi ilə əlaqədar olaraq tiraj kəskin şəkildə azaldı), 1922-ci ildə – 5000, 1923-cü ildə – 5500, 1924-cü ildə – 6500, 1925-ci ildə – 9500 nüsxəyə bərabər idi. 1925-ci il iyunun 8-dən etibarən qəzetin sonuncu səhifəsində tirajın miqdarı barədə məlumatın verilməsinin dayandırılması və yalnız ötəri hallarda bu və ya digər səbəbdən yarımçıq məlumat verilməsi qəzetin tirajı barədə təsəvvürlərimizi son dərəcə məhdudlaşdırdı. Yalnız 1927-ci ildə nəşr olunmuş yubiley nömrəsindəki məqalələrin birində tirajın 10 min nüsxəyə çatması haqda ötəri məlumat verilmişdi.

## 7. Nədən və necə yazmalı?

Fəhlə-kəndli və partiya-hərbi müxbirləri qarşısında «qəzetin həyatımızın güzgüsünə çevrilməsi» üçün konkret vəzifələr qoyulmuşdu. Məsələn, «Qəza müxbirlərinin nəzərinə!» sütununda onlardan tələb olunurdu ki, aşağıdakılara xüsusi diqqət yetirsinlər:

- xurafata və savadsızlığa qarşı mübarizə aparmaq;
- ərzaq vergisi yığımı və çöl əkin işləri sahəsində məlumat toplamaq;
- kənd təsərrüfatının yaxşılaşdırılması;
- partiya ilə əlaqə və s.

Tərxis olunub kəndə gedən hərbi müxbirlərə də konkret tapşırıqlar verilirdi. Hacı Səlim Səyyahın imzası ilə yazılmış «Hərbi müxbirlər kənddə necə işləməlidirlər?» məqaləsində deyilirdi ki, onların qarşısında çox ciddi və mühüm vəzifələr durur. Onlar qələmlərini yerə qoymamalı, şəhərliləri kənd həyatı ilə tanış etməli, kəndə gələn kimi ilk növbədə «Kommunist», "Kəndçi qəzetəsi" və "Yeni fikir" qəzetləri ilə sıx ünsiyyət yaratmalı, abunə kampaniyasında fəal iştirak etməli, yerlərdə divar qəzetlərinin yaradılması üçün öz təcrübələrindən istifadə etməli, kəndliləri divar qəzetləri ilə əməkdaşlığa dəvət etməyə çalışmalıdırlar. Bir sözlə, hərbi müxbir öz təcrübəsindən istifadə edərək kəndli müxbiri rolunu ifa etməlidir.

Redaksiya kəndli müxbirləri üçün çox tez-tez nəsihətverici məqalələr dərc edirdi. Onlara izah edilirdi ki, «Xırda məsələlər barəsində qəzetə yazı göndərməyin, çünki belələrini divar qəzetlərində də yazmaq olar». Kəndli müxbirlərinə divar qəzetlərinin daha yaxşı tərtibatı üçün əlavə üsul və metodlar barəsində məsləhətlər verilirdi. Müxbirlərə təklif olunurdu ki, kənd həyatının ən ağrılı problemlərindən, kənd təsərrüfatı işlərinin gedişindən, vahid kənd təsərrüfatı

vergisindən, kredit birliklərindən və s. barədə yazsınlar, klublar, qiraət komaları, kənd kooperativində ticarət və bu kimi şeylər haqqında yazmaqla kifayətlənməsinlər. «Ayn» imzası ilə dərc




Mürəttiblər




Linotipçilər

olunmuş «Nə haqqında yazmalı? Qəza və kəndli müxbirlərimizə tapşırıq» adlı məqalədə təklif olunurdu ki, «kənd təsərrüfatı vergisinin gedişi və yaz-tarla işlərinə hazırlıqların gedişi» barəsində yazsınlar. Bunun necə yerinə yetirilməsi üsulları izah edilirdi. «Adsız» (Əliəkbər Heydərli) imzası ilə yazılmış məqalədə göstərilirdi ki, «kəndli müxbiri şəhərlə kəndin münasibətlərində əlaqələndirici həlqədir. Əgər fəhlə müxbiri şəhərdə hər addımda şəhər mədəniyyəti ilə rastlaşır və maariflənirsə, kəndli müxbirinin özü geridə qalmış savadsız kənddə mədəniyyətin və maarifin nümayəndəsi və daşıyıcısı hesab olunur. Bu mənada kəndli müxbirinin rolu daha böyükdür. Ona görə də kəndli müxbirinə daha çox diqqət yetirilməlidir». Onu da qeyd edək ki, əgər 1923-cü ilə kimi qəzet səhifələrində kəndli müxbirlərinə 2-3 sütun yer ayrılırdısa, 1923-cü ilin noyabrından bu bölmə tam bir səhifəyədək genişləndirilmişdir.

Digər tapşırıqlarla yanaşı, kəndli müxbirinə tarixi əhəmiyyət daşıyan əşyaların talan edilməsi faktlarının müəyyənləşdirilməsi və qarşısının alınması üçün tədbirlər görməsi tapşırılırdı. Bu müqəddəs borcu yerinə yetirmək üçün «hər bir qəza müxbiri imkan daxilində onun şəklini fotoya aldırmalı» və ya, əgər əşya kiçik həcmlidirsə, onda həmin əşyanı alimlərə və muzeyə vermək üçün redaksiyaya göndərməlidirlər. Bununla bağlı bütün yol xərclərini redaksiya öz üzərinə götürürdü.

## 8. Qəzet təsvirçiliyi üslubunun təkmilləşdirilməsi

AzMİK Rəyasət Heyəti 1921-ci il noyabrın 13-də keçirilmiş iclasında «Azərbaycan füqərası» qəzeti ilə bağlı «qəzetin istər məzmununun, istərsə də ifadə üslubunun yaxşılaşdırılması, xalq dilinə yaxınlaşdırılması, fəhlə və kəndlilərin anladığı, başa düşdükləri səviyyəyə gətirilməsi məqsədi ilə» qərar qəbul etmişdi. Bununla və sonrakı qərarlarla əlaqədar olaraq "Kommunist" qəzeti fəhlə-kəndli müxbirləri hərəkatının genişlənməsindən sonra birbaşa müxbirlərinə müraciət edərək, onlardan öz yazı üslublarını yaxşılaşdırmalarını tələb edirdi. Əvvəllər isə redaksiyaya gələn məktublar əslində redaksiya əməkdaşlarının gücü ilə məqalə halına salınırdı. «Qəza müxbirlərinin diqqətinə. Müxbir öz yazısına diqqət yetirməlidir» başlıqlı məqalədə müəlliflərə tövsiyə edilirdi ki, qəzetdə çap olunmuş yazılarını yenidən oxusunlar və üzərində edilmiş düzəlişlərə diqqət yetirsinlər ki, bundan sonra həmin səhvləri təkrarlamasınlar. Onlara məsləhət görülürdü ki, redaksiyaya göndərdikləri yazıları iki nüsxədə yazıb, birini özlərində saxlasınlar və yazıları çap olunduqdan sonra hər ikisini tutuşdurub, buraxdıqları səhvləri islah etsinlər, köhnəlmiş qəliz ərəb və fars sözlərindən imkan daxilində az istifadə etsinlər. "Kommunist" qəzeti bununla heç də «redaksiyanın işinin yüngülləşdirilməsi məqsədinin güdülməydiyini» nəzərə çatdırır və bildirirdi ki, «əsas məqsəd vahid qəzet ifadə-təsviri üslubunun» yaradılmasıdır.

Yuxarı partiya instansiyalarında və ayrı-ayrı mətbuat vasitələrində türk dilinin anlaşılmazlığı barədə haray-həşirin qaldırılması məhz bu dövrə təsadüf edir. Qəribə də olsa, bu harayı qaldıranlar həmin dili bilməyən qeyri-azərbaycanlılar idi. N.Nərimanovun «köçəri quşlar» adlandırdığı belə adamlara harada aş, orada baş olan intriqan Levon Mirzoyan istiqamət ver-

irdi. Məsələn, 1920-ci il sentyabrın 16-da Azərbaycan K(b)P MK-nın təşkilat bürosunun iclasında çıxış edən L.Mirzoyan bəyanat vermişdir ki, «müsəlman nəşrləri… bizim üçün anlaşılmaz yarıərəb dilində çıxır» (bu mövzuda məsələ bir neçə dəfə də dilimizi bilməyən və ara qarışdırmaqda mahir olan S.M.Kirov tərəfindən qaldırılmışdır). Azərbaycan K(b)P MK və BK-da işə keçən L.Mirzoyan bu məsələni bir neçə dəfə qaldırmışdır, hərçənd özünün etiraf etdiyinə görə, o, «türk dilini bilmirdi». Çox güman ki, bu kampaniyanın başladılmasından məqsəd Azərbaycan dilini məişət ünsiyyəti vasitəsinə çevirmək, onu Azərbaycan klassik ədəbiyyatından, öz köklərindən ayrmaq idi. Bu sayaq primitiv, düşük «dilçi ekspertlərə» cavab olaraq "Kommunist" qəzeti Ə.Bədinin (Triniç) imzası ilə yazdığı «Mətbuatımızın vəzifələri» baş məqaləsində bildirirdi ki, «türk dilinin anlaşılmazlığı barəsində çoxlu spekulyativ danışıqlar aparılır. Özü də bu məsələni elə adamlar qaldırırlar ki, onlar bu dil haqqında heç nə bilmirlər. Onlar bircə şeyi bacarırlar: ucadan qışqırıb «Karaul!» deyə çağırmağı». Əslində isə burada qorxulu heç nə yoxdur. Bizim qəzetin dilini əvvəllər nəşr olunan "İrşad", "Şəlalə", "Açıq söz" və s. qəzetlərin dili ilə müqayisə etmək tamamilə kifayətdir. Bizim qəzet dilimizin inkişaf səviyyəsini görməmək mümkün deyil.

## 9. Fəhlə-kəndli müxbirləri hərəkatı

Qeyd etdiyimiz kimi, Rusiyada başlanmış fəhlə-kəndli müxbirləri hərəkatı tədricən Azərbaycanda da yayıldı. Belə ki, 1921-ci ilin yanvarından Bakıda Petroqradda və Moskvada olduğu kimi yerli və şəhər ədəbi heyətləri yaranmağa başlandı. Amma bu hərəkat çox tez söndü. Fəhlə-kəndli müxbirləri hərəkatının yeni dalğası 1923-cü ildə gücləndi. O zaman qəzetlərin nəzdində fəhlə müxbirləri kursları təşkil olundu. Bu sahədə daha çox planauyğun iş yalnız "Kommunist" qəzeti tərəfindən aparılırdı.

Kəndli müxbirləri hərəkatını daha mütəşəkkil miqyasda aparmaq məqsədi ilə 1923-cü ilin iyulunda qəzetin təşəbbüsü ilə respublika kəndli müxbirlərinin konfransı çağırıldı və bir sıra qəzaların nümayəndələri burada yaxından iştirak etdilər. İştirakçıların bütün yol xərclərini qəzet öz üzərinə götürmüşdü. "Kommunist" qəzetini bu konfransda kəndli müxbirləri Əhməd Əhmədov (Göyçay), Məbud İmamverdiyev (Nuxa - Şəki), Balacayev (Zaqatala), Qasımov (Şəmkir), Əfəndiyev (Ağdaş), Qulam Axundov (Şuşa), Səfər Məmmədov (Qazax), S.Qasımov (Quba), Səfərəli Məmmədov (Salyan) təmsil edirdilər. Konfrans başa çatdıqdan sonra kəndli müxbirləri zavod və mədənləri gəzmiş, "Kommunist" qəzetinin işi ilə tanış olmuşlar.

«Kəndlilərə» adlı məqalədə qəzet yazırdı ki, «kəndli müxbirləri kəndlərə getməli, kəndlilərlə yaxınlaşmalı, onların ehtiyaclarını görərək aşkar etməlidirlər. Çünki kəndli əlində məktub gəlib kəndli müxbirlərini axtarmayacaq».

"Kommunist" qəzeti nəzdində fəaliyyət göstərən dinləyicilər kursunda mühazirələr oxumaq üçün əvvəlcə qəzetin əməkdaşları cəlb edilmiş, Rusiya K(b)P MK-nin «Hazırda yeni qəzet işçiləri kadrlarının hazırlanması bizim milli mətbuatın ən aktual vəzifəsidir» 30 may 1925-ci il tarixli göstərişindən sonra

filoloq alimlər, dilçilər, jurnalistlər mühazirə oxunuşuna səfərbər edilmişdilər. Onların arasında fəallığı ilə seçilən Bəkir Çobanzadəni, Məhəmmədhəsən Baharlını (Vəliyev), Əliəkbər Heydərlini, Həbib Cəbiyevi, Məmməd Səid Ordubadini, Böyükağa Talıblını, Vəli Xuluflunu, Əli Kərimovu, Abdulla Şərifovu, Zinətulla Nuşirəvanovu, Salman Mümtazı, Əhməd Triniçi (Bədi) və b. xüsusilə qeyd etmək istərdik.

Qəzet öz xüsusi müxbirlərinin vasitəsi ilə yerlərdə fəhlə-kəndli müxbirləri hərəkatının yaranması və genişlənməsini dəstəkləyirdi. Bu sahədə pioner olanlardan biri qəzetin Şəki müxbiri Məbud İmamverdiyev idi və o, başqaları üçün də nümunə oldu. Onun rəhbərliyi ilə 1924-cü ilin fevralında Şəkidə "Kommunist" və «Бакинский рабочий» qəzetlərinin qəza müxbirlərinin ilk müşavirəsi keçirildi. «Mətbuatın əhəmiyyəti haqqında və kəndli müxbirlərinin vəzifələri», «İşçi qəzetində nədən və necə yazmalı», «Kəndli müxbirlərinin təqibi və müdafiəsi haqqında» və s. mövzularda məruzələr edildi.

Kəndli müxbirlərinin işini və onların müdafiəsini əlaqələndirmək üçün Məbud İmamverdiyevin sədrliyi və üç kəndli müxbirinin – Tağıyev, Allahyarov və Rəhimzadənin üzvlüyü ilə kəndli müxbirləri bürosu təşkil edildi.



Əli Razi Şəmçizadə

Az sonra başqa qəzalarda da"Kommunist", "Бакинский рабочий", "Kəndli qəzetəsi" müxbirlərindən ibarət bürolar yaradılmışdı. "Kommunist" qəzetini həmin bürolarda: Ağdamda – Həsənəli Rüstəmzadə, Ağdaşda – İbrahim Xəlil Səfərəlizadə, Göyçayda – Əhməd Əhmədov, Gəncədə – Əli Razi Şəmçizadə, Zaqatalada – Rəsul Hacıxanov, Qazaxda – Səfər Məmmədov, Karyagində (Füzuli rayonu ətrafı) – Şirvan Sadıxov, Lənkəranda – Səfər Məmmədli, Naxçıvanda – Məmməd Rəsizadə, Tovuzda – Qasım

Məmmədzadə, Şamaxıda – Məmməd Abbaszadə, Şəmkirdə – Hüseyn Nemətov, Salyanda – Məmməd Səfərli, Şuşada – Qulam Axundov, Bakı qəzasında – Paşa Mehdizadə təmsil edirdilər.



Almas(zadə) İldırım

Tədricən bütün qəzalarda kəndli müxbirlərinin sayı artmağa başladı, özü də o qədər artdı ki, onların haqqında məlumat statistik xarakter almağa başladı. Konkret adların sadalanmasına gəldikdə isə yalnız qəzetin ən fəal xüsusi müxbirlərinin adlarının çəkilməsi ilə kifayətlənməli oluruq: Göyçayda – Əbil Ucarlı, Gəncədə – Əli Razi Şəmçizadə, Ayn (ع) Abdullayev, Şuşa və Tərtərdə – Qulam Axundov(zadə), Salyanda – Tağı Musayev, Zərdabda – Əbülhüseyn Zərdabi, Qubada – Səfər Aşurlu, Cəbrayılda – H.Ə.Rəhimzadə, Bakı rayonlarında – Almas(zadə) İldırım (sonralar tanınmış şair – İrana, oradan isə Türkiyəyə mühacirət etmişdir), Məmməd Əmənullazadə, Hilal Turanlı, Müseyib Dadaşov, Yunis Hacıyev (sonralar "Kommunist" qəzetinin redaktoru olmuşdur), Mikayıl Abdullayev (sonralar xalq rəssamı), Hafiz Mirzəzadə, Ağasəlim Manaflı, «Krımlı» və b.



Mikayıl Abdullayev

“Kommunist” qəzetinin 1924-cü il avqustun sonlarına Bakıda 57, şəhər rayonlarında 197 fəhlə müxbiri, qəzalarda isə 63 kəndli müxbirləri var idi (hesablamalar bizimdir). Qəzetdə fəhlə-kəndli və partiya-hərbi müxbirlərin tam sayı 317 nəfər idi. Müqayisə üçün deyək ki, həmin dövrdə «Бакинский рабочий»nin - 117, “Kəndli qəzetəsi”nin – 144, “Yeni yol”un – 25, “Труд”un – 100 (hesablamalar bizimdir) müxbiri var idi. 1925-ci ildə “Kommunist” qəzetinin 438 müxbiri var idi ki, bunların da 292-si fəhlə müxbiri, 133-ü kəndli müxbiri idi. Həmin müxbirlərdən 7 nəfəri qadın idi.

Əgər 1924-cü ildə redaksiya fəhlə-kəndli müxbirlərindən hər ay 190-200 məktub alırdısa, 1925-ci ildə bu rəqəm 500-750 arasında olmuşdur. 1926-cı ildə 350 fəhlə müxbiri, 500-dən artıq kəndli müxbiri qəzetlə əməkdaşlıq edirdi və onlardan hər ay orta hesabla 1200-1300 məktub alınırdı. 1927-ci ildə isə təkcə kəndli müxbirlərindən hər gün orta hesabla 70-100 məktub alınırdı; 668 fəhlə müxbiri, 850 kəndli müxbiri qəzetlə daimi əməkdaşlıq edirdi.

1925-ci ilin noyabrından 1926-cı ilin aprelinədək, yəni cəmi 6 ay ərzində “Kommunist” qəzetinin səhifələrində 18820 (!) korrespondensiya dərc olunmuşdu.

1922-ci ildə qəzetdə qəzalardan göndərilmiş 116 kəndli müxbiri yazısı, 1923-cü ildə isə 74 kəndli müxbirinin 404 yazısı çap olunmuşdu. Əgər 1923-cü ilin ikinci yarısında (6 ay ərzində) fəhlə-kəndli müxbirlərindən 4160 məktub alınmışdırsa, təkcə 1927-ci ilin 4 ayı ərzində 10060 məktub alınmışdı.

Fəhlə-kəndli müxbirləri yazılarını öz adları və ya o dövrlərdə qəbul olunduğu kimi təxəllüsləri ilə imzalayırdılar. Bu təxəllüslərin bir qismi C.Məhərrəmli tərəfindən müəyyənləşdirilmişdir. “Kommunist” qəzetinin ilk fəaliyyət göstərdiyi illərdə burada çalışan hörmətli mətbuat xadimimiz Qulam Məmmədli ötən əsrin əvvəllərindən 70-ci illərinədək bir dövrü əhatə edən zaman üçün Azərbaycan mətbuatı üzrə təxəllüslərin dəqiqləşdirilməsi sahəsində çox böyük iş görmüş və nəticələrini

1977-ci ildə «İmzalar» adlı kitabda çap etdirmişdir. İmzaların bir qismi də bizim tərəfimizdən müəyyənləşdirilmişdir.

Respublikada fəhlə-kəndli müxbirləri hərəkatını daha da genişləndirilməsində "Kommunist" qəzetinin redaktoru Həbib Cəbiyevin təşəbbüsü ilə çağırılmış I Azərbaycan fəhlə-kəndli müxbirləri qurultayının həlledici rolu olmuşdur. O, əvvəlcə Azərbaycan K(b)P MK-də mətbuat nümayəndələrinin müşavirəsini keçirmiş, qurultaya hazırlıq görmüşdü. Qurultaya hazırlıq müşavirələri Ruhulla Axundovun ümumi sədrliyi ilə 1924-cü il iyunun 18-də keçirilmiş və qərara alınmışdı ki, qurultay sentyabrın 15-dək çağırılsın. Triniç, Rəhmanov, Şahbazov, Çaqin və Qepşteyndən ibarət 5 nəfərlik büro yaradılmışdır. 19 bənddən ibarət tezislər hazırlanmışdı. Qurultay 1924-cü il oktyabrın 2-dən 6-dək keçirilmişdir. Qurultayda 250-dək nümayəndə iştirak etmişdi. Nümayəndələrin yarıdan çoxu qəzaların payına düşürdü.

Fəhlə-kəndli müxbirləri hərəkatı barədə İ.Ə.Eminbəyli məruzə etmişdi.

Qurultay aşağı təşkilatlara tövsiyə edirdi ki, yaşlı bitərəf kəndliləri, xüsusilə də yoxsulları və muzdurları kəndli müxbirləri sıralarına qəbul etsinlər.

Kəndli müxbirlərinin savadını artırmaq məqsədi ilə təklif olunurdu ki, divar qəzetlərinin və mərkəzi və qəza qəzetləri redaksiyalarının nəzdində dərnəklər təşkil edilsin. "Kommunist" qəzeti redaksiyasında «Stalin adına klub» dərnəyi təşkil olunmuş, onun şəhər rayonları üzrə bölmələri yaradılmışdır. Müxbirlər müsəlmanların istirahət günü olan cümə günlərində toplaşırdılar. Qəzalarda da belə dərnəklər yaradılmışdı. Həmin dərnəklərdə fəhlə-kəndli müxbirlərinə insanlarla ünsiyyət yaratmaq qabiliyyəti, həssaslıq öyrədilirdi. Onlara nədən və necə yazmağı, materialı necə əldə etməyi öyrədirdilər.

Təklif olunurdu ki, bir yazıda yalnız bir mövzu əhatə olunsun, dürüst məlumatlara əsaslanılsın, ara sözlərinə inanıb, qələmə əl atmasınlar.

Qurultay fəhlə-kəndli müxbirlərinin yerli və partiya təşkilatları tərəfindən törədilən təqib və özbaşınalıqlardan müdafiə olunması məsələsinə xüsusi diqqət yetirdi. Bunun üçün Fəhlə-kəndli müxbirlərinin Azərbaycan bürosu yaradıldı və onun Rəyasət Heyəti seçildi. "Kommunist" qəzetindən büroya Səfər Məmmədli (Lənkəran), Rəyasət Heyətinə isə Əziz Nuri, Məmmədqulu Əlixanov (Azərbaycan bürosunun katibi), Abdulla Şərifov daxil oldular.

Qəzetin səhifələrini təsadüfi – xaltura materiallarından xilas etmək, eləcə də fəhlə-kəndli müxbirlərində sərbəstliyi tərbiyə etmək məqsədi ilə klubun nəzdindəki dərnəklərdə onların məruzələri dinlənilirdi. Məsələn, fəhlə müxbiri Əhməd Bədəlzadənin «Türk işçi mətbuatının tarixi» və Qasım Tahirin «Hamilik məsələləri» məruzələri dinlənilmişdi.

Moskvada fəhlə-kəndli müxbirləri hərəkatını daha da inkişaf etdirmək üçün 1924-cü ilin dekabrında «Правда» və «Рабочий корреспондент»in nəzdində fəhlə-kəndli müxbirlərinin II Ümumittifaq müşavirəsi çağırıldı. Bu müşavirəyə Leninin bacısı M.İ.Ulyanova rəhbərlik etdiyindən, ona xüsusi diqqət verilirdi. «Naməlum» səbəblərdən müşavirədə təmsil olunmaq üçün "Kommunist" qəzetinin nümayəndələrinə yer verilməmişdi. M.İ.Ulyanovanın şəxsi köməkliyi ilə "Kommunist" qəzetinə təmsil olunmaq üçün xüsusi yer ayrıldı və fəhlə müxbiri Əziz Nuri müşavirənin rəyasət heyətinə seçildi.

Qəzetin həm birlikdə, həm də ayrı-ayrılıqda, bəzən də qəzalar üzrə müşavirə və konfranslarının keçirilməsi ənənə halını aldı.

Qəzet qəza müxbirləri üçün zona müşavirələri də təşkil edirdi. Məsələn, 1927-ci il aprelin 21-də Poylu-Dərbənd dəmiryolu xətti boyunca yerləşmiş qəzaların kəndli müxbirlərinin konfransı keçirilmişdir. Burada divar qəzetlərinin sərgisi də təşkil olunmuşdu.

Hələ 1921-ci il fevralın 21-də kəndli müxbirlərinin fəaliyyətini gücləndirmək məqsədi ilə Azərbaycan K(b)P MK qəza partiya komitələrinə və qəzetlərin redaksiyalarına təsdiq

olunmuş təmimnamə göndərilmiş və tələb olunmuşdu ki, kəndli müxbirlərini yerli inzibati və digər ünsürlərin hədə və təzyiqlərindən qorusunlar. Bundan əlavə, qəza işçilərinə kömək məqsədi ilə 4 mühazirədən ibarət - 1) «Kəndli müxbirləri və onların əsas vəzifələri haqqında», 2) «Kəndli müxbirlərinin təşkilat məsələləri haqqında», 3) «Tərbiyə işləri və təqiblərdən müdafiə haqqında», 4) «Divar qəzetləri haqqında» - «Kəndli müxbirləri hərəkatı üzrə mühazirələr konspekti» nəşr etmişdi.

Ümumittifaq fəhlə-kəndli müxbirləri hərəkatının aparıcı təşkilatçılarından olan «Правда» qəzeti redaksiyasının katibi M.İ.Ulyanovanın 1926-cı il martın 7-də Bakıya gəlməsi Azərbaycan fəhlə-kəndli müxbirləri üçün böyük hadisəyə çevrildi. Müxtəlif səviyyələrdəki çoxsaylı görüşlər və çıxışlardan sonra M.İ.Ulyanova martın 10-da 500 nəfərdən artıq fəhlə-kəndli müxbirlərinin iştirak etdiyi müşavirədə çıxış etdi və III Ümumittifaq fəhlə-kəndli müxbirləri müşavirəsində həll ediləcək əsas vəzifələrdən danışdı.

1927-ci ilin əvvəllərində respublikanın müəssisə, təşkilat və kəndlərində 900-dək divar qəzeti, 10 minədək fəhlə-kəndli müxbirləri nəşri və divar qəzeti, 160-dək fəhlə-kəndli müxbirləri dərnəyi var idi.

Fəhlə-kəndli müxbirlərinin sıralarının sürətlə artması və həmin dövrdə partiya və dövlət məmurlarının onları ifşa və tənqid edən müxbirləri açıq təqib etməkdən çəkinmələri onu bildirir ki, o illərdə fəhlə-kəndli müxbirləri hərəkatının inkişafı üçün kifayət qədər əlverişli şərait yaradılmışdı.

Respublika partiya təşkilatları fəhlə-kəndli müxbirləri ilə işin təkmilləşdirilməsinə və onların hərəkatlarının genişləndirilməsinə diqqət yetirirdilər. Məsələn, Azərbaycan K(b)P BK-nın 1927-ci il 30 mart təqdimatı ilə Azərbaycan K(b)P MK Rəyasət Heyəti aprelin 12-də Azərbaycanda fəhlə-kəndli müxbirləri hərəkatı məsələləri üzrə konkret təkliflər olan qərar qəbul etmişdir. Azərbaycan Dövlət nəşriyyatına tapşırılmışdı ki, türk dilində müvafiq ədəbiyyatın nəşrini təşkil etsin.

## 10. Kəndə doğru

O dövrün ən mürəkkəb və çətin məsələlərindən biri dövri mətbuatın kənd yerlərinə çatdırılması idi. Bu məsələ o qədər ciddi idi ki, onun həlli qəzetlərin imkanları xaricində idi. "Kommunist" qəzeti Ə.Bədinin imzası ilə yazılmış «Növbəti vəzifələrimiz» məqaləsində göstərirdi ki, «bu gün əsas çatışmazlıqlarımızdan biri kəndlilərlə normal əlaqənin olmamasıdır. Ona görə də poçt işçilərinin qəzaların mərkəzdən uzaq olması izahatlarını ciddi qəbul etmək olmaz. Bu səbəb deyil. Poçt işçilərini işdə fəaliyyətə gətirmək lazımdır».

Həm poçt işçiləri, həm də yerli hakimiyyət nümayəndələri bəzən elə hərəkət edirdilər ki, onları mübaliğəsiz cinayətə bərabər saymaq olar. Məsələn, Quba qəzasının Rustov İcraiyyə Komitəsi sovetinin sədri Əsədulla Cəfərzadə milisin köməyi ilə abunəçilər üçün nəzərdə tutulan qəzetin alverçilərə və dükançılara satışını təşkil etmişdir.

Hətta Bakı kəndlərinə qəzet gec, bəzən həftədə bir dəfə çatdırılırdı. Bəzi yerlərdə qəzetin çatdırılması o qədər pis təşkil olunmuşdu ki, abunəçilər qəzetin 50-60 nömrəsini birdən alırdılar. Məsələn, Quba qəzasının Xudat dairəsində, Göyçay qəzasında və başqa yerlərdə qəzet pudlarla yığılır və dükanlara göndərilirdi. Bunun əsas səbəblərindən biri Azərbaycanda poçt-teleqraf sisteminin son dərəcə pis təşkil olunması və respublika rəhbərliyinin belə "xırda" işlərlə maraqlanmağa imkanının olmaması idi.

1924-cü ildə Azərbaycanda 55 poçt-teleqraf müəssisəsi, 1 teleqraf və 1 yardımçı idarə, cəmisi 57 müəssisə var idi. Müqayisə üçün deyək ki, həmin dövrdə qonşu Gürcüstanda 164 poçt-teleqraf müəssisəsi var idi. Ona görə də qəzetlər şimal rayonlarına (Quba, Qusar) 4-5 gün gec, cənub (Biləsuvar, Lerik) rayonlarına isə ən yaxşı halda 6-8 və ya daha gec müddətə çat-

dırılırdı. Respublikanın ən ucqar bölgələri haqqında danışmağa isə dəyməzdi. Bu məsələnin həlli üçün ümumdövlət səviyyəsində iş görmək lazım idi. ZaqMİK, AzMİK və Azərbaycan K(b)P MK-nın köməkliyi ilə 1925-ci ildə qəzalarda 69 yeni oturaq poçt şöbəsi açıldı və yalnız bundan sonra kəndli müxbirlərin yaxından köməkliyi sayəsində vəziyyət bir qədər yaxşılaşdı.

## 11. Qəzetdə dərc olunan material – rəsmi sənəddir

Bütün qəzetlərin redaksiyalarına tapşırılmışdı ki, çap edilməyən yazıların səbəblərini imkan daxilində izah edə biləcək xüsusi rubrika yaratsınlar. “Kommunist” qəzeti bu üsuldan hələ 1923-cü ildən istifadə edirdi. «Poçta qutusu» və «Cavablarımız» rubrikalarında yazıları dərc olunmayan müəlliflərə bunun səbəbi qısaca izah edilirdi. Məsələn, “Kommunist” qəzetinin 1923-cü il 16 may tarixli nömrəsində yazılırdı: «Yoldaş Şamilova: Sizin tamamlanmamış məqaləniz üç müxtəlif mövzunu – kooperativləri, torpaq işini və kəndlilərin həyatında iqtisadi siyasəti əhatə edir. Əgər yazılarınızı hər sahə üzrə ayrıca yazsanız və yazılarınızı tamamlasanız, dərc edərik». Başqa yazı: «Cavanşirdə - Yulduza: Sizin yazı imzasız olduğundan (yəni müəllifin soyadı, adı və ünvanı olmadığından) dərc olunmayacaq».

Məktublar bəzən təkrarçılığa, faktların olmamasına, yubanmasına, əsassızlığına və ya ictimai maraq kəsb etmədiyinə görə çap olunmurdu.

Təbii ki, bu və ya digər səbəbdən yazıların çap olunmaması fəhlə-kəndli müxbirlərinin fəallığının inkişafına müəyyən dərəcədə mənfi təsir göstərirdi. Müxbirlərin bir çoxu hətta redaksiyadan küsür və yazmaqlarına xitam verirdilər. Qəzet fəhlə-kəndli müxbirlərinin incikliklərinə yumorla yanaşır, onları yenidən ruhlandırmağa çalışır və əməkdaşlığı davam etdirməyə çağırırdı. Bəzən küsmüş müxbirlərə bayatılar, felyetonlar və şerlər həsr edirdilər. Məsələn:

Bundan sonra şu “Kommunist” qəzetəsinə bir xəbər
Yazmamağa and içmişəm, söz vermişəm özümə.
Nə barədə yazıramsa, düzəldib çap edirlər,
Yazdığımı çap etmirlər, baxmayırlar sözümə.

Və ya:

Demək bizdən küsmüsən, ay təcrübəsiz əməkdaş,
Əbəs, əbəs. Bu hərəkət yakışarmı heç sana?
Kəmsavadsan, yazdıqların düzəlməzsə, a yoldaş
Yazı yazmaq üsuluyla olarsanmı aşina?

Fəhlə-kəndli müxbirləri hərəkatı bütövlükdə həm müxbirlərin fəallığına, həm də onların vasitəsi ilə geniş xalq kütlələrinə böyük təsir göstərmişdi. Savadsızlığın ləğv olunması yolundakı təbliğat və təşviqat işlərində bu hərəkatın rolu əvəzedilməzdir. Bununla belə, 30-cü illərin ikinci yarısında daha da genişlənmişdir – xəbərçiliyin, çuğulluğun, böhtançılığın, rüsvayetmənin ilkin rüşeymlərini bu hərəkatda müşahidə etmək o qədər də çətin deyil. Təkcə onu demək kifayətdir ki, 1925-ci ilin ikinci yarısı və 1926-cı ilin birinci yarısında prokurorluq orqanlarının göstərilən dövr üzrə apardıqları təhqiqatların 50%-i məhz kəndli müxbirlərinin mətbuatda dərc olunmuş yazılarına əsasən başlanılmışdır.

Müxbirlərin bəziləri öz şəxsi məqsədləri və mənfəətləri, yaxud da, sadəcə olaraq kiminsə paxıllığını çəkdikləri, şəxsən xoşları gəlməməsi səbəblərindən, bəzən də özlərini kimlərəsə göstərmək naminə ayrı-ayrı adamlara böhtan atır, onları şərləyirdilər. Məsələn, Göyçay qəzasının Sağırlı kəndindən Mürvət Qurbanov adlı birisi “Kommunist” qəzetində «Komsomol bayrağı altında qolçomaq ocağı» adlı yazı dərc etdirir. Cəmi üç gün sonra məlum olur ki, müəllif xoşuna gəlməyən adamlara böhtan atıb. Və ya Nərimanabddan olan Nüsrət Tapdıqlı adlı bir başqası eyni yolu tutub. O, qızını və ya bacısını ona vermək istəməyən şəxslərin hamısına böhtan atıb. Oxu daşa dəyən adaxlı, demək olar ki, kənd sakinlərinin hamısını şərləyib, amma sonda ifşa edilib.

«Бакинский рабочий» qəzetinin fəhlə müxbiri Gəncədə həmkarlar təşkilatı işçisinə böhtan atır və az sonra işdən qovulur. «Бакинский рабочий» qəzeti isə, məsələyə aydınlıq

gətirmədən tələb (!) edir ki, həmin müxbir 24 (iyirmi dörd!) saat ərzində öz işinə bərpa edilsin».

«Бакинский рабочий»dən fərqli olaraq "Kommunist" qəzeti öz fəhlə-kəndli müxbirlərinə qarşı çox tələbkar idi. Məsələn, M(əmmədqulu) Əlixanovun imzası ilə dərc olunan «İşçi müxbirləri və növbəti vəzifələrimiz» adlı məqalədə deyilirdi ki, bizim imkanları məhdud mətbuatımız üçün vicdanlı və doğruçu müxbirlər lazımdır», «Müxbirlər arasında ləyaqətsiz ünsürlər» adlı məqalədə isə qəzet yazırdı ki, «sıralarımızı zərərli ünsürlərdən, mətbuatı öz qərəzli və şəxsi məqsədləri üçün istifadə edənlərdən təmizləmək lazımdır».

«Qotur müxbir – rədd ol sıralarımızdan» yazısında tələb olunurdu ki, yalançı müxbirləri çap olunmaq imkanlarından məhrum etmək, eləcə də onları xəbərdar etmək lazımdır ki, barələrindəki sənədlər prokurorluq orqanlarına göndəriləcək».

Fəhlə müxbirləri Məcid Bağırov və Qədirovun davranışı ilə bağlı "Kommunist" qəzetinin Şubanı kənd fəhlə müxbirləri bürosuna məsələ çıxarılır. Onlar dəqiqləşdirilməmiş materialları qəzetə göndərmişlər və buna görə də cəzalandırılıb töhmət almışlar.

Elə hallar da olmuşdur ki, bəzi fəhlə-kəndli müxbirləri bir neçə yazı dərc etdirdikdən sonra lovğalanıb öyünməyə başlamış, insanları qəzetlərdə barələrində rüsvayçı yazılar dərc edəcəkləri ilə hədələmişlər. Məsələn, Lenin dairəsindən olan fəhlə müxbiri Hüseyn Fikri (təxəllüsü «İşçi müxbiri») belə davranışına görə fəhlə-kəndli müxbirlərinin yoldaşlıq məhkəməsinə cəlb olunmuş və 1926-cı il aprelin 30-da ona 6 ay müddətində qəzetdə çap olunmaq qadağan edilmişdi. Başqalarına ibrət olsun deyə, yoldaşlıq məhkəməsinin qərarı qəzetdə dərc olunmuşdu.

Bununla belə, qəzet tez-tez öz səhifələrində fəhlə-kəndli müxbirlərinin təqiblərdən və repressiyalardan müdafiə olunması məsələsini qaldırır, müvafiq instansiyalara müraciət edirdi. Azərbaycan K(b)P MK-nin yerlərə 12 yanvar 1923-cü il tarixli təmimnamə göndərməsinə, ZaqXKS-nin 1924-cü ilin sonunda

fəhlə-kəndli müxbirlərinin müdafiə olunması barədə dekret verməsinə baxmayaraq, onların təqibi davam edirdi. Müvafiq təşkilatlarda dəfələrlə kəndli müxbirlərinin təqib olunması, izlənilməsi, sıxışdırılması və döyülməsi məsələlərinə baxılmışdır. Belə hallar Lənkəran, Nuxa və digər qəzalarda baş vermişdi. Elə hallar da olmuşdu ki, nəinki partiya və sovet işçiləri, hətta qəza milis rəisi də kəndli müxbirlərindən tələb etmişdi ki, yazılarını qəzetə göndərməzdən əvvəl yoxlanılmaq üçün onun yanına gətirsinlər.

Kəndli müxbirlərinin kütləvi şəkildə təqib olunmasına 1923-cü ilin ikinci yarısından başlanılmışdı.

Təqiblərin qarşısının alınması və günahkarların cəzalandırılması məqsədi ilə prokurorluq orqanları işə qarışdılar və onların nümayəndələri mətbuatda bu barədə çıxışlar etməyə başladılar. Məsələn, «Çoxlarına xəbərdarlıq. Prokuror nəzarəti və kəndli müxbirləri» məqaləsində Bakı şəhər prokurorunun müaıvini Məmmədəmin Ramazanzadə bütün təqibçilərə xəbərdarlıq edərək bildirirdi ki, «kəndli müxbirlərindən əl çəkin…». O, xatırladırdı ki, cinayət məcəlləsinin 88-ci maddəsinin 4-cü bəndinə əsasən təqibçilər məsuliyyətə cəlb olunacaqlar, kəndli müxbirlərinin yazılarına diqqət yetirməyən və cavab verməyən rəhbərlər isə cinayət məcəlləsinin yuxarıda göstərilən, eləcə də 108-ci maddəsi ilə təqsirli bilinərək məsuliyyətə cəlb ediləcəklər.

Azərbaycan K(b)P BK-nin Rəyasət Heyəti 1924-cü il yanvarın 30-da partiya özəklərinin fəhlə-kəndli müxbirləri yazılarına nəzarət etmək cəhdlərini araşdırmış və onu qadağan etmişdir.

Qəzetin redaksiyası öz fəhlə-kəndli müxbirlərinə kömək etmək məqsədi ilə 1924-cü il iyunun 13-də Bakı Soveti inzibati şöbəsinin müdiri, Şəki və Bakı prokurorunun iştirakı ilə müşavirə keçirdi və onlar hər bir konkret hal üçün konkret tədbirlər görürdülər.

Bu, o qədər ciddi bir məsələ idi ki, Azərbaycan K(b)P MK 1924-cü il sentyabrın 29-da «Kəndli müxbirlərinin

təşkilatlanmasına dair tədbirlər və onlara qarşı hər hansı repressiyanın tam aradan qaldırılması haqqında» qərar qəbul etmişdi.

“Kommunist” qəzeti belə hesab edirdi ki, mətbuat səhifələrində dərc olunan hər hansı bir yazı və material bütövlükdə prokurorluğa rəsmi müraciət hesab olunur. Məhz buna görə də prokurorluq orqanları fəhlə-kəndli müxbirlərinin yardımından bəhrələnə və onları təqiblərdən qoruya bilər.

Kəndli müxbirləri də yerlərdə öz qüvvələrini birləşdirmək imkanları arayırdılar. Onlar birləşərək qəza kəndli müxbirləri bürosu yaratmışlar. Məsələn, Lənkəranda “Kommunist”, “Бакинский рабочий”, «Kəndçi qəzetəsi» və yerli “Kəndçi qəzetəsi” ilə ümumi yığıncaqda qəza bürosunu yaratdılar. Qəza partiya komitəsi isə onlara qəza miqyasında təqiblərə qarşı qəzet kampaniyası aparmağa kömək etmişdi.

1924-cü ilin yazından başqa qəzalarda da belə bürolar yaradılmışdı. Bu onunla bağlı idi ki, həmin dövrdən etibarən kəndli müxbirlərinin təqib olunmasında yeni mərhələ müşahidə olunmaqda idi. Bununla əlaqədar olaraq AzMİK Rəyasət Heyəti bütün xalq komissarlıqlarına, icraiyyə komitələrinə, Bakı Sovetinə, NMSSR və DQMV MİK-lərinə təmim sərəncamı göndərərək, yerli bürokratlara qarşı ən ciddi tədbirlərin görülməsini tələb etmişdir.

“Kommunist” və “Бакинский рабочий” qəzetləri qərara almışdılar ki, özlərinin birgə qüvvələri ilə bürokratlara qarşı mübarizə aparsınlar və kəndli müxbirlərinin müdafiəsi məqsədilə bütöv səhifələri buna həsr edirdilər. Bunun üçün qəzetlərin hər ikisində «Qəza və kəndli müxbirlərinin müdafiəsinə» rubrikası açılmışdır.

Bir sıra hallarda yerli partiya və sovet rəhbərlərinin göstərişi ilə kəndli müxbirləri həbs olunur və ya tutduqları vəzifələrindən azad edilirdilər. Məsələn, Lənkəranda “Kommunist” qəzetinin kəndli müxbiri Məmmədəli İsmayılov həbs olunmuş və yalnız Azərbaycan K(b)P MK mətbuat şöbəsinin müdaxiləsindən sonra azadlığa buraxılmışdı. Maştağada “Kommunist” qəzetinin Azərbaycan LKGİ BK-nın Rəyasət Heyətinə

məktubla müraciətindən sonra vəzifəsindən azad edilmiş kəndli müxbiri işinə bərpa edilmişdi. İndiki Bakıxanov qəsəbəsində «Oradakı» təxəllüslü fəhlə müxbiri (nə qədər paradoksal olsa da, fəhlə-kəndli müxbirlərinin əksəriyyətinin təxəllüslərini məhz onların təqib olunmalarına görə müəyyənləşdirə bilmişik) təqibə məruz qalmışdı. Bununla əlaqədar olaraq "Kommunist" qəzeti prokurora müraciət etmiş və lazımi yardım almış, təqib olunan fəhlə müxbiri «Oradakı» - Nağı Cəfərov isə sonralar ən yaxşı müxbirlərdən biri olmuş və redaksiyanın vəsaiti hesabına Moskvaya ali jurnalist təhsili almağa göndərilmişdir.

Bəzən müvafiq instansiyalardakı ayrı-ayrı vəzifəli şəxslər fəhlə-kəndli müxbirlərinin adlarını açıqlamaqla bir tərəfdən onların təqib olunmalarına, digər tərəfdən isə cinayətlərin gizlədilməsinə şərait yaradırdılar. Ona görə də Respublika Ali Məhkəməsi bu cür fəaliyyətin cinayət hesab edilməsi və günahkarların Cinayət Məcəlləsinin 104-cü maddəsinin «b» və 117-ci maddəsi ilə cəzalandırılması barədə qərar qəbul etmişdi.

## 12. Ən yaxşı qəzet hansıdır?

İlk vaxtlar həm respublika rəhbərliyində, həm də yerlərdə «aparıcı qəzet» kimi "Бакинский рабочий"ə üstünlük verirdilər. "Kommunist" qəzetinə isə ikinci dərəcəli kimi baxır, oxumur və onun səhifələrində qaldırılan məsələlərə reaksiya vermirdilər. Yalnız redaksiyanın yorulmaz, çox çətin və davamlı səyləri nəticəsində vəziyyət tədricən yaxşılığa doğru dəyişməyə başladı. 1923-cü ildən etibarən "Kommunist" qəzetinin səhifələrində dərc olunan materiallar prokurorluq orqanlarının diqqətini cəlb etməyə başladı.

Respublika rəhbərləri əhaliyə müraciətlə qəzetdə tez-tez çıxış edirdilər. Məsələn, Bakı prokurorunun müavini Məmmədəmin Ramazanzadə «Zəhmətkeşlərin nəzərinə» adlı müraciətində bildirirdi ki, «indiyə qədər "Бакинский рабочий"də olduğu kimi, bundan sonra "Kommunist" qəzetində dərc olunan yazılar və materiallar da diqqət mərkəzində olacaq və araşdırılacaqdır».

Azərbaycan K(b)P BK XII konfransı bütün təşkilatlardan məcburi qaydada türkcə "Kommunist" qəzetinə diqqət yetirmək tələb edən qətnamə qəbul etmişdi. Həmin qətnamə XIII konfrans tərəfindən də təsdiq olundu.

Qəzetin özü isə onu oxumayan bürokratlara pamflet və felyetonlar həsr edirdi. «Təəssübkeş» (Balaqədəş Səttaroğlu) imzası ilə yazılmış həmin felyetonlardan birinin bir parçasını oxucuların nəzərinə çatdırırıq:

Yazılsa həqqində nə, heç e'tina eyləməz,
Çünki bilir doğrudur, "yalandır bu" söyləməz.
Bildigin eylər yenə, o, bir şeyi dinləməz,
Yaxşı bilirsən özün, müdirdir əvvəl cənab.
İncimə, məktubuna verməsə həzrət cəvab.

Çünki savuqdur qanı, eyləməz əslən i’tab,
Bu barədə qəzetədə kimsəyə verməz cəvab.

Tənqidi yazılara cavab verənlər tez-tez orada mövcud olan balaca xətalara istinad edir, «əsas məsələləri unudaraq» cavablarını əsassız təkziblər şəklində tərtib edir və cavablarının tezliklə dərc olunmasını tələb edirdilər. Məsələn, B(ağır) Hacızadənin imzası ilə dərc olunmuş «Cavablar və cavab yazanlar haqqında» məqalədə belələrinə xatırladılırdı ki, «həm yazılar, həm də cavablar müvafiq təşkilatların işlərinin yaxşılaşdırılması və sağlamlaşdırılması məqsədi ilə çap edilir. Ona görə də hər cür üsulla özünü doğrultma cəhdlərindən əl çəkib, çatışmazlıqları aradan aqldırmaq lazımdır».

## 13. Özü və başqaları haqqında

Qəzetin respublikanın bütün qəzalarında olduğu kimi, Cənubi Qafqaz və SSRİ-nin dəgər respublikalarında, eləcə də bir sıra xarici ölkələrdə xüsusi müxbirləri var idi. Moskva müxbiri kifayət qədər böyük jurnalistika təcrübəsinə malik olan Əliəkbər Heydərli idi. Fəhlə-kəndli müxbirlərinə yardım məqsədi ilə o, hələ 1923-cü ildə «Qəzetə və müxbirləri» adlı kitabça da nəşr etdirmişdir. Tiflis müxbiri Ə.Qərib (Əliəkbər Abbasov) - “Yeni fikir” qəzetinin müxbiri idi. Dağıstan müxbiri Səid Nizami və b. idi.



Sen Katayama

Qəzet çalışırdı ki, dünyada baş verən hadisələr barədə informasiyanı öz oxucularına daha tez çatdırsın. Teleqraf və radio dalğaları ilə gecə saat ikiyədək müxtəlif agentliklərdən alınan informasiya qəzetin səhər nömrələrində öz əksini tapırdı. Bundan əlavə, qəzet xaricdə nüfuz sahibi olan və öz ölkələrinin rəhbər dairələrinə əli çatan, onların Şərq siyasətindən yaza bilən siyasi xadimləri və ya jurnalistləri axtarıb tapmağa çalışır, onlarla əlaqə yaradırdı. Qəzet iyirmidən artıq xarici ölkənin jurnalistləri ilə əməkdaşlıq edirdi. Məsələn, Yaponiya üzrə xüsusi müxbir Yaponiya KP MK-nın Baş katibi Sen Katayama, Böyük Britaniya üzrə müxbir ölkə parlamentinin üzvü Valton Nyubold (o, öz yazılarını



Sen Katayama “Kommunist”in əməkdaşları və müxbirləri arasında

Leninqrad dənizçilərinin vasitəsi ilə «Труд» qəzetinə göndərirdi, oradansa yazı Bakıya “Kommunist” qəzetinə çatdırılırdı), Fransa və Cənubi Avropa ölkələri üzrə Lui Joğe, J.Dorio, Pyer Russe, Afrika üzrə – Eyvon Conson, Türkiyə üzrə – M., İran üzrə – «Şirazi», «Durnəvis» («Uzaqdan yazan»), V.Petrin, Belçika üzrə – Benniqhauzen, Hindistan üzrə –

A.Daqas, Almaniya üzrə – Otto Mareşke (Kominternin katibi), H.Menşi, Amerika üzrə – İ.İ.Amter və s. idi.

Qəzetin təşəbbüsü ilə "Kommunist"in fəhlə-kəndli müxbirləri "Freiheit" ("Azadlıq") alman qəzeti ilə dostluq əlaqələri yaratmışdılar, alman qonaqlar Bakıya gəlmiş, "Kommunist" qəzetinin fəhlə-kəndli müxbirləri ilə görüşmüş və onlarla birgə konfrans keçirmişlər.

## 14. Dünyada ilk linotip?

Qəzetin əməkdaşlarının iş şəraiti son dərəcə çətin və gərgin idi. Buna işarə edən müəllif «Əbü-l-hövl» (S.Məlikov) «Biz necə işləyirik?» məqaləsində yazırdı: «Redaksiya işlərini yerinə yetirməkdən əlavə biz həm də tərcüməçilik edirik. Tərcüməçilər də tərcümə edirlər! «Azərtac» rusca 30 səhifəlik informasiya göndərib, məsul işçilər – türklər də 150 səhifəlik 15 məqalə göndəriblər – hamısı da rusca, ixtisar etməyə də icazə vermirlər. Müxbir Mir Abbas (Mirbağırov) 6 intervü gətirib, hamısı da rusca. Bütün redaksiya tərcüməçilər kontorasıdır… Bax biz belə işləyirik».



Ərəb əlifbası ilə
sətri mətn yığan ilk linotip

Yuxarıda deyildiyi kimi, qəzetin bütün mətni əl ilə yığılırdı, çünki ərəb əlifbası ilə sətri mətn yığan linotip hələ ixtira olunmamışdı. Mətn yığanların əməyini yüngülləşdirmək məqsədi ilə Azərbaycan K(b)P MK Almaniya və Fransa ilə belə

linotiplərin yaradılması haqqında danışıqlar apardı. Amma layihələr Azərbaycan dilinin tələblərinə cavab vermədiyindən həmin ölkələrdə veriləcək sifarişlər ilk başlanğıcda ləğv edildi. Qərara alındı ki, ABŞ-la danışıqlar aparılsın. Bu məqsədlə "Kommunist"in redaktoru Ruhulla Axundov və "Бакинский рабочий"nin redaktoru Lifşits ABŞ-a ezamiyyətə göndərildilər. "Kommunist" qəzeti üçün ərəb ədifbası ilə sətri mətn yığan linotiplərin hazırlanması 1925-ci ilin yazında başa çatdı. Mövcud qüsurlar sifarişçi və istehsalçının ümumi qüvvəsi ilə aradan qaldırıldı.

***Bu, dünyada ərəb əlifbası ilə sətri mətn yığan ilk linotip idi və müsəlman Şərqində ərəb qrafikası ilə ilk sətri mətn Sovet Azərbaycanının sifarişi ilə yaradılmış linotipdə və Azərbaycan dilində yığılmış mətn olmuşdur***. İlk yığılan mətn isə 1925-ci il mayın 5-də – S.İnqulovun bolşeviklərin mətbuat günündə çap olunmuş «Lenin və mətbuat» adlı məqaləsi idi.

## 15. Ən yaxşı qəzet, hər halda...

"Kommunist" qəzeti maddi vəsait sarıdan da çox korluq çəkirdi. Qəzetə əsaslı yardım göstərilməsi üçün hələ R.Axundovun göndərdiyi ərizəyə uyğun olaraq Azərbaycan K(b)P BK Rəyasət Heyəti 1922-ci il aprelin 20-də "Бакинский рабочий" qəzetinə və bütün rusdilli partiya və sovet orqanlarına təklif etdi ki, sərəncamlarında olan hər cür informasiyanı türkcə qəzetlərə də, o cümlədən "Kommunist" qəzetinə də göndərsinlər. Azərbaycan K(b)P MK Rəyasət Heyəti isə özünün 1922-ci il 3 iyul tarixli iclasında qərara almışdı ki, *"Kommunist" qəzetinin əməkdaşlarının məvacibi "Бакинский рабочий"nin əməkdaşlarının məvacibinə bərabərləşdirilsin.* Bu barədə XKS və AzMİK-ə vəsaitin ayrılması üçün tapşırıq verildi. Bu məsələyə XKS-nin 1922-ci il dekabrın 26-da keçirilmiş iclasında da baxılmış və müsbət həll olunmuşdu.

Amma bütün bunlar yalnız müvəqqəti olaraq redaksiya əməkdaşlarının məvacibinin verilməsini yüngülləşdirmişdir, qəzetin nəşri ilə bağlı xərclər isə artmaqda davam edirdi. Məsələ burasındadır ki, göstərilən illərdə "Бакинский рабочий" linotip üsulu ilə yığılırdı, "Kommunist" qəzeti isə bütün hərflər və, hətta sözlərin arasındakı boşluqlar belə, əl ilə yığılırdı ki, bunun üçün də böyük yığıcılar kollektivi işə cəlb edilmişdi. Ona görə də qəzet naşirlərə xeyli borclu qalmışdı. Bundan əlavə, MK və XKS-nin yuxarıda göstərilən qərarlarına baxmayaraq, XKS-dən redaksiyaya 1923-cü ilin mart-iyun aylarının kəsirlərini ödəmək üçün ayrılmış vəsait – 100 min rubl qızıl pul redaksiyanın büdcəsinə köçürülməmişdi. Elə bu səbəbdən də redaksiya növbəti dəfə Azərbaycan K(b)P MK-ya yardım üçün müraciət etmişdi. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan dilində nəşr olunan "Kommunist" qəzetinə qısqanclıqla yanaşan, rəhbərləri qeyri-azərbaycanlı olan başqa təşkilatlar da, xüsusilə

də «Azneft», Mədənçilər ittifaqı, «Neft fondu», Bakı Soveti müxtəlif hiylələrə və bicliklərə əl ataraq qəzet üçün nəzərdə tutulan vəsaiti verməkdən yayınırdılar. Bakı Sovetinin sədri Krılov isə Azərbaycan K(b)P MK-ya göndərdiyi məktubda birbaşa göstərmişdi ki, türkcə "Kommunist" qəzetinə bir qəpik də pul ödəməyəcək.

Respublikanın XKS-i 1924-cü il oktyabrın 28-də qərara almışdı ki, rəsmi məlumatlar "Kommunist" qəzetində də dərc olunsun və onlar qəzetə əlavə ediləcək "Hökumətin əmr və qərardadları"nda yerləşdirilsin. Bu məqsədlər üçün vəsait XKS tərəfindən aylıq subsidiya şəklində 1400 rubl həcmində verilməli idi.

Onu da qeyd edək ki, "Kommunist" qəzetindən fərqli olaraq "Бакинский рабочий"ə yardımlar artıqlamasilə vaxtlı-vaxtında ayrılır və özünə verilirdi. Bu azmış kimi "Бакинский рабочий" heç vaxt müəyyənləşdirilmiş maliyyə çərçivəsinə sığmamışdır. Bu məsələ nəticəsiz olaraq dəfələrlə Ümumittifaq K(b)P Zaqafqaziya Nəzarət Komissiyasının 1926-cı ilin sonunda və Azərbaycan K(b)P MK-nın 1928-ci il iyulun 9-da keçirdikləri iclaslarında araşdırılmış və təsbit edilmişdir ki, "Бакинский рабочий" qəzeti ona edilən bir sıra xəbərdarlıqlara, göstərişlərə və direktivlərə baxmayaraq, redaksiya onun üçün müəyyənləşdirilmiş smetaya sığmamış, aidiyyəti orqanların göstərişlərini heç vaxt yerinə yetirməmişdir».

Bir halda ki, söhbət KP MK-nın və hökumətin «aparıcı» orqanı olan "Бакинский рабочий" qəzetindən düşdü, səthi olsa da, onun fəaliyyətini "Kommunist" qəzeti ilə müqayisə etmək pis olmazdı. Faktlara müraciət etmək üçün "Бакинский рабочий" qəzetini 1928-ci ilin iyununda təhqiq etmiş Ümumittifaq K(b)P MK-nın təlimatçısı Ksenofontovun tamamilə məxfi materiallarına nəzər yetirək. Beləliklə, 1928-ci il aprelin 7-də Ümumittifaq K(b)P MK-da müşavirə keçirilmiş, kənddə vəziyyət məsələsi müzakirə olunmuşdu, Bakıda isə həmin gün o dövr üçün çox aktual sayılan kolxoz quruculuğu mövzusuna dair müşavirə keçirilmişdi. "Бакинский рабочий" qəzetinin

səhifələrində həmin məsələlərlə bağlı bircə kəlmə də dərc olunmayıb, hərçənd bunları geniş işıqlandırmaq onun birbaşa vəzifəsi idi. Həmin məsələlər yalnız “Kommunist” qəzetində işıqlandırılıb.

Ümumittifaq K(b)P XV qurultayı keçirilən günlərdə “Бакинский рабочий” qəzeti (qeyd edək ki, qəzetin redaktoru Lifşits xüsusi dəvətnamə ilə qurultayda iştirak edirdi, “Kommunist” qəzetinin redaktoruna isə belə dəvətnamənin verilməsinə qəti etiraz edilmişdi) partiya orqanı kimi qurultay materiallarını işıqlandırmaq əvəzinə, hər gün bulvar xarakterli, düşük məzmunlu – «Vırubovanın gündəliyi», «Üç yorğa», «Aksyutkanın məhəbbəti» kimi «ədəbi yazılar»ı bütöv səhifələrlə dərc etmişdi.

“Бакинский рабочий”nin səhifələrində 1920-ci ildən sonra Azərbaycana (Bakı istisna edilməklə) qəzetin ümumi həcminin cəmi 1%-i ayrılırdı, axı bu qəzet təkcə Bakı Komitəsinin orqanı deyildi, hərçənd onun üçün ayrılan yer də cəmi 7% idi. Göyçay, Bayıl, Quba, Karyagin, Lənkəran və s. partiya təşkilatları ilə bağlı Azərbaycan K(b)P MK tərəfindən qəbul olunmuş qərarlar “Бакинский рабочий”də dərc olunmayıb, onlar yalnız “Kommunist” qəzetinin səhifələrindədir.

Bununla yanaşı, “Бакинский рабочий” qəzeti bəzən mövcud olmayan dekretlər, qərarlar haqqında materiallar dərc edir, arzu ediləni gerçəklik kimi qələmə verirdi. Misal gətirək. AzMİK-in işlər müdiri özünün “Бакинский рабочий”ə göndərdiyi 1928-ci il 4 noyabr tarixli 330124 saylı məktubunda yazırdı: «Son dövrlərdə Sizin qəzet qəbul olunması AzMİK-ə ünvanlanan, amma əslində nəinki qəbul olunmamış, heç qəbul olunması da planlaşdırılmamış dekret və sərəncamlarla bağlı yazılar dərc edir. Biz bu barədə dəfələrlə Sizə yazıb, xahiş etmişik ki, belə qeyri-dürüst məlumatları haradan aldığınızı bizə bildirəsiniz, fəqət heç bir cavab almamışıq». Belə iradlar başqa məktublarda da kifayət qədərdir.

Əgər “Бакинский рабочий” daha çox İttifaq mərkəzinin ruporu idisə, “Kommunist” qəzeti ondan fərqli olaraq respublika

problemlərinə daha çox diqqət yetirmişdir, onun səhifələrindəki materialların əksəriyyəti Azərbaycan gerçəkliyinin, kənd və şəhər həyatının işıqlandırılmasına həsr edilib. Görünür elə buna görə də partiya və dövlət rəhbər dairələrində "Бакинский рабочий"ə artıq diqqət verilir.

Aşağıdakı müqayisə cədvəli dediklərimizi əyani sübut edir:

"Kommunist"* və "Бакинский рабочий" qəzetlərinin tematika və həcminə görə faizlə müqayisə cədvəli (orta hesabla)

| № | Tematika | Kommunist | Бакинский рабочий |
|---|---|---|---|
| 1 | SİTA-nın informasiyası | 12.5 | 20.0 |
| 2 | Beynəlxalq mövzularda məqalələr | 6.25 | 15.0 |
| 3 | Yerli informasiya. Yerli həyat | 12.5 | 12.0 |
| 4 | Ümumədəbi materiallar | 5.0 | təxminən 10.0 |
| 5 | İşçi məişəti | 12.5 | 8.2 |
| 6 | Partiya həyatı (nitqlər, qətnamələr və s.) | 12.5 | 7** |
| 7 | Azərbaycan üzrə | 15.5 | 1.0 |
| 8 | Ordu və donanma | 0.5 | 0.8 |
| 9 | Şaxmat və bədən tərbiyəsi | 0.1 | 0.5 |
| 10 | Elanlar, sorğu şöbəsi | 0.1 | 6.0 |
| 11 | SSRİ | 6.25 | 6.0 |
| 12 | Burjua mətbuatı (haqqında) | 3.1 | 1.0 |
| 13 | Dekretlər | 6.25 | 6.25 |
| 14 | Həmkarlar hərəkatı | 6.25 | 6.0 |
| 15 | Müxtəlif | 0.7 | 0.25 |

* "Kommunist" qəzetinin təhqiqi bizim tərəfimizdən aparılmışdır.

** Üstəlik, 50 faizi rəhbər xarakterli məqalələrdir.

"Бакинский рабочий" qəzetinin Azərbaycan gerçəkliyinə laqeyd münasibəti "Kommunist" qəzetinin səhifələrində dəfələrlə tənqid olunmuşdur. Məsələn, sevimli yazıçımız, AzMİK-in katibi Tağı Şahbazinin (Simürğ) 7 aprel

1924-cü il tarixli «Mətbuatımıza yeni nəzərlər» məqaləsində deyilirdi: «"Бакинский рабочий"ə yalnız qıraqdan baxıldıqda bəlli olur ki, o Azərbaycan mərkəzinin orqanıdır… Belə ki, qəzetin 23 mart tarixli 65 sayında, 31 mart tarixli 71 sayında, 1 aprel tarixli 72 sayında və s. Azərbaycan həyatına dair (Bakısız) 10-15 sətirlik ikinci dərəcəli yazı – telefon xəttinin çəkilməsi və s. bu kimi məlumat dərc edilib… Onun səhifələrində kənd təsərrüfatı həyatına dair heç nə yoxdur. Azərbaycan kəndi yalnız ərzaq vergisi toplanan zaman yada düşür».

"Бакинский рабочий" qəzetinin diqqətini Azərbaycan gerçəkliyinə hər hansı yolla cəlb etmək məqsədi ilə "Kommunist" qəzeti onu dəfələrlə ayrı-ayrı kampaniyaların – Sovetlərə seçkilərin keçirilməsi, vahid kənd təsərrüfatı vergisinin yığılması, kənd təsərrüfatı uduşlu istiqrazının təbliği və s. kampaniyalarda yarışlara dəvət etmiş, amma cavab almamışdır.

Bir məsələni qeyd etməyi özümüzə borc bilirik. "Kommunist" qəzeti əski əlifba (ərəb) ilə nəşr olunduğundan, tədqiqatçıların hamısı bir qayda olaraq, "Бакинский рабочий" qəzetinin çox da dürüst olmayan, əksər hallarda isə təhrif olunmuş və yarımçıq materiallarından istifadə edərək «bəhrələnirlər». Tariximizi daha düz, təhrifsiz çatdıran "Kommunist" qəzetinə isə baxılmır. Bu səhvi mütləq düzəltmək lazımdır.

## 16. Digər qəzetlərə yardım

"Kommunist" qəzetinin səhifələrində kənd təsərrüfatı və kənd həyatı ilə əlaqədar olan "Azərbaycan füqərası" (1921-1921), "Kəndçi qəzetəsi" və qəza qəzetlərinin fəaliyyətinə lazımınca diqqət yetirilirdi.

Azərbaycan K(b)P MK 1920-ci il iyulun 31-də qərar qəbul etmişdi ki, R.Axundovun redaktəsi ilə «Kənd füqərası»nın nəşrinə başlanılsın. "Kommunist" qəzetinin əməkdaşları da bunun üçün səfərbərliyə alınmışdılar. Tezliklə «Kənd füqərası» qəzetinin nəşrinə başlanıldı. Amma qəzeti əvvəlcə "Kommunist"in redaktoru Həbib Cəbiyev, sonra isə Sultan Məcid Əfəndiyev redaktə etdi. İstər həftəlik «Kənd füqərası», istərsə də gündəlik "Azərbaycan füqərası" qəzeti sərbəstləşən kimi yalnız siyasi mövzularda yazılara üstünlük verib, kəndi unutdular. Az sonra onlar vahid bir qəzetdə "Azərbaycan füqərası" adı ilə birləşdirildilər və o Azərbaycan K(b)P MK və BK-nın orqanına çevrildi, "Kommunist" qəzeti isə Azərbaycan İnqilab Komitəsinin (Azrevkom) və Bakı Sovetinin orqanı oldu. "Azərbaycan füqərası"nın Azərbaycan K(b)P MK və BK-nın orqanı olmasına baxmayaraq, o dəfələrlə nəşr etdiyi yazıların tematikasının adına uyğun gəlməməsi ucbatından "Kommunist" qəzetinin tənqid obyektinə çevrildi. "Azərbaycan füqərası" da kənd həyatına, kənd problemlərinə laqeyd yanaşırdı və bunun nəticəsi olaraq 1921-ci il dekabrın 10-də Azərbaycan K(b)P MK-nın qərarı ilə onun adı dəyişdirilib «Azərbaycan xəbərləri» qoyuldu, lakin 1922-ci il yanvarın 27-də öz fəaliyyətini dayandırdı.

1923-cü il iyunun 16-da "Kommunist" qəzetinin bazası əsasında və əməkdaşlarının qüvvəsi ilə «Əkinçi qəzetəsi» adlı yeni kəndli qəzetinin nəşrinə cəhd göstərildi. Amma cəmi bir

nömrə buraxıldı, lazımi baza və jurnalist kadrlarının yoxluğu ucbatından qəzetin nəşrini davam etdirmək mümkün olmadı.

Xüsusi kəndli qəzetinin zəruriliyini əsaslandıran "Kommunist" qəzeti «Bizə kəndli qəzetəsi lazımdır» adlı redaksiya məqaləsində yazırdı ki, «indi kəndimiz nəşr olunan qəzetələrin yalnız 20 faizini alır, hərçənd əhalimizin 80%-dən artıq hissəsi kənddə yaşayır… Mərkəzi qəzetlər həmkarlar ittifaqları barəsində, siyasətdən, fəhlələrdən yazır, kəndlilərə isə kənd təsərrüfatı, özlərinin həyatları barədə qəzetə lazımdır. Onu da nəzərə almaq lazımdır ki, qəza qəzetələri bu mənada onların tələbatlarını ödəmək qabiliyyətinə malik deyil».

Yalnız Azərbaycan K(b)P MK-nın işə ciddi qarışmasından sonra qəzetin nəşri baş tutdu. "Kommunist" qəzetinin bir sıra əməkdaşları "Kəndçi qəzetəsi" adlanan yeni qəzetin nəşrini təşkil etmək üçün səfərbərliyə alındı. Bunlardan Ə.H.Qarayev (redaktor), H.Zeynallı, R.Axundov və M.Əlixanovu göstərmək olar. "Kommunist" qəzeti hər gün «Kəndçi qəzetəsi»nin təbliğatını aparır, kəndliləri və qəza işləri ilə əlaqədar adamları abunə yazılmağa çağırırdı. O bu qəzetin proqramını öz səhifələrində dərc edib, onunla əməkdaşlıq etmək istəyənlərdən "Kommunist" qəzetinin redaksiyasına müraciət etmələrini istəyirdi.

Müəyyən ləngimədən sonra "Kəndçi qəzetəsi" nəhayət ki, 1923-cü il oktyabrın 12-dən həftədə iki dəfə 2 min nüsxə tirajla çıxmağa başladı. Qəzetin səhifələri aqronom təbliğatlarına və respublikanın kənd təsərrüfatı həyatına həsr edilirdi.

"Kommunist" qəzetinin səhifələrində "Kəndçi qəzetəsi"nin hər bir nömrəsinin məzmunu haqqında məlumat verən gündəlik guşə açılmışdı. Bundan əlavə, qəzet özünün bütün qəza və rayon müxbirlərinə tapşırmışdı ki, "Kəndçi qəzetəsi"nə əməli köməklik göstərmək məqsədi ilə ona qəzalardan yazılar və informasiyalar göndərsinlər, hamilik edən fəhlələrə isə təklif etmişdi ki, «Kəndçi qəzetəsi»ni alıb kəndlərə göndərsinlər. "Kəndli qəzetəsi"ni (qəzet 1924-cü ilin sonundan 1932-ci ilə

kimi belə adlandı, 1932-ci ildən 1935-ci illədək “Azərbaycan kolxozçusu”, həmin dövrdən SSRİ dağılana qədər isə “Sovet kəndi” adlanmışdı) gücləndirmək məqsədi ilə dəfələrlə “Kommunist” qəzetinin əməkdaşları səfərbərliyə alınmışdı.


Qulam Məmmədli

“Kommunist” qəzetinin səhifələrində qəza mətbuatına da xeyli diqqət yetirilirdi. O qəza qəzetləri ilə ünsiyyət yaratmağı özünə borc bilir və hesab edirdi ki, belə münasibətlər olmazsa, onda mətbuat geridə qalmış kəndə doğru irəliləyə bilməz, qəza mətbuatı isə inkişaf etməz. “Kommunist” qəzetinə görə «qəza mətbuatı öz bölgəsində əsl kəndli qəzetəsinə çevrilməliir. Bu onun vəzifəsidir».


Məmmədəli Nasir


Əmənulla

Müxtəlif illərdə qəzalarda həftəlik “Yeni Gəncə” və “Новая Гянджа” (1922-ci ildən), “Şəki fəhləsi” (1922-ci ildən), “Şərq qapısı” (1922-ci ildən – Naxçıvan), “Ağdam şö’ləsi” (1923-ci ildən), “Yeni dirilik” (1922-ci ildən – Quba), “Zaqatala kəndçisi” (1923-ci ildən), “Qırmızı Muğan” və “Красная Мугань” (1924-ci ildən – Salyan) və s. qəzetlər nəşr olunurdu. Hər həftə “Kommunist” qəzetinin səhifələrində həmin qəza qəzetləri haqqında əməkdaşlardan M.S., “Əbü-l-hövl” (Suleyman Məlikov), Kaf, Ayn Kaf, A.Kazım, Ə.Kərimzadə (Akif Kazım və Əli Kərimov), M[üseyib] Şahbazov, Ə[hməd] Bədi (Triniç), Əlif. Əlif. [ا.ا.] (İbrahim Eminbəyli və Əsəd Əyubi), N., Z.N.,

Zinətulla, Nuşirəvanov, Z.N-v. (Zinətulla Nuşirəvanov), Əjdər Süleymanzadə, Mahmud Xanbudaqov və s. imzası ilə yazılar dərc edilirdi.

"Kommunist" qəzeti onların fəaliyyətini hərtərəfli xarakterizə edirdi. Onun fikrincə qəza qəzetlərinin ən yaxşısı "Yeni dirilik", "Zaqatala kəndçisi", "Ağdam şö'ləsi" və "Qırmızı Muğan" idi, "Yeni Gəncə" və "Şəki fəhləsi" qəzetləri isə daha çox siyasi mövzuda yazırmışlar. "Şəki fəhləsi"nin səhifələrində yerin ¾-ü Puankare, Lloyd-Corc və dünya siyasətinə həsr olunmuşdu. "Kommunist" qəzeti dəfələrlə "Şəki fəhləsi"nin bu mövqeyini tənqid etmiş və göstərmişdir ki, onun vəzifəsi tamam başqadır. Məsələn, «Qəza qəzetələrinin vəzifələrinə dair» məqalədə "Şəki fəhləsi"nin mövzu seçimindəki düzgün olmayan mövqeyni tənqid etmiş və onun simasında başqalarını da başa salmağa çalışmışdır ki, «Qəza mətbuatının vəzifəsi dünyadakı siyasi hadisələri geniş işıqlandırmaq deyil, bir nömrədə Puankareyə bir neçə məqalə həsr etmək deyil, onun vəzifəsi yerli həyatın daxili məsələlərini həll etməkdir».

Ən primitiv vəziyyətdə çap olunan "Şərq qapısı" həm tematika, həm də təsvirçilik üslubuna görə dəfələrlə "Kommunist" qəzeti tərəfindən tənqidə məruz qalmışdı.

"Kommunist" qəzeti eyni zamanda öz səhifələrində qəza mətbuatının acınacaqlı vəziyyəti ilə bağlı dəfələrlə məsələ qaldırmışdır. Məsələn, «Azərbaycan qəzalarında qəzet işinin təşkili» məqaləsində oxuyuruq: «Şriftlər çatışmır. «Qırmızı Muğan» və «Şərq qapısı» kimi qəzetələrin müxtəlif ölçülü cəmi iki kassa şrifti var və bu səbəbdən də qəzetənin bir nömrəsini bir neçə dəfə biabırçı şəkildə çap edirlər». Həmin qəzetlərə başqa yolla köməklik göstərə bilməyən "Kommunist" qəzeti öz kasıb fondunda olan şriftlərin bir hissəsini təmənnasız onlara vermişdi.

*    *
*



**«КОММУНИСТ» ГӘЗЕТИНИН АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИНИН ФӘХРИ ФӘРМАНЫ ИЛӘ ТӘЛТИФ ЕДИЛМӘСИ ҺАГГЫНДА**

АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИ РӘЈАСӘТ ҺЕЈ'ӘТИНИН ФӘРМАНЫ

«Коммунист» гәзетинин он мининчи нөмрәсинин чыхмасы илә әлагәдар олараг вә Азәрбајчан зәһмәткешләринин коммунистчәсинә тәрбијә едилмәси вә коммунизм гуручулуғу вәзифәләрини мүвәффәгијјәтлә һәјата кечирмәк үчүн онларын сәфәрбәрлијә алынмасы ишиндә гәзетин хидмәтләрини гејд едәрәк, **«Коммунист»** гәзети Азәрбајчан ССР Али Советинин **Фәхри Фәрманы** илә тәлтиф едилсин.

**Азәрбајчан ССР Али Совети Рәјасәт һеј'әти сәдринин мүавини**
**Һ. МӘММӘДОВ**
**Азәрбајчан ССР Али Совети Рәјасәт һеј'әтинин катиби**
**С. ЧӘФӘРОВ**

Бакы шәһәри, 19 нојабр 1955-чи ил.
**«Коммунист», 20 нојабр 1955-чи ил.**



## „Коммунист“ гәзетинин редаксијасына

«Правда» гәзетинин редаксијасы «Коммунист» гәзетинин редаксија һеј'әтини, фәал мүәллифләрини вә охучуларыны гәзетин он мининчи нөмрәсинин чапдан чыхмасы мүнасибәти илә гызғын тәбрик едир. Нефт вә памбыг уғрунда, Азәрбајчан Совет Сосиалист Республикасынын игтисадијјат вә мәдәнијјәтини даһа да јүксәлтмәк уғрунда мүбаризәдә сизә мүвәффәгијјәт арзу едирик. Техники тәрәгги уғрунда әзмлә мүбаризә апарын, габагчыл вә мүтәрәгги нә варса, һамысыны фәал бир сурәтдә мүдафиә един вә јајын, өзүнүтәнгиди вә ашағыдан тәнгиди чәсарәтлә кенишләндирин. Јениликчиләрин тәчрүбәсини, Коммунист Партијасынын XX гурултајы шәрәфинә сосиализм јарышыны кениш вә парлаг ишыгландырын. Бакы фәһлә синфинин шанлы ингилаби ән'әнәләрини давам етдирин, Азәрбајчан зәһмәткешләрини Коммунист Партијасына мәһәббәт вә сәдагәт руһунда, чошгун совет вәтәнпәрвәрлији руһунда, бејнәлмиләлчилик вә Совет Иттифагы халгларынын гардашчасына достлуғу руһунда тәрбијә един. Бөјүк Маркс—Енкелс—Ленин идејаларыны күтләләр арасында јорулмадан јајын.

**«Правда» редаксијасы.**

**«Коммунист», 20 нојабр 1955-чи ил.**

"Kommunist"in 10 000-ci sayı təntənə ilə qeyd olundu

"Kommunist" qəzeti 70 il ərzində Azərbaycan KP-nın və Azərbaycan Sovet dövlətinin tarixində mühüm rol oynamışdır.

Mədəniyyət, incəsənət və ədəbiyyat, iqtisadiyyat, xalq təsərrüfatının bütün sahələrinin bərpası və inkişafı məsələləri, xüsusilə də neft və kənd təsərrüfatının bərpası, həmkarlar hərəkatı, partiya-komsomol işləri, hamilik hərəkatı, qənaət rejimi, beynəlxalq həyata dair və s. məsələlər "Kommunist" qəzetinin səhifələrində geniş işıqlandırılmışdır.

Yarandığı ilk vaxtlarda kiçik həcmli və ikinci dərəcəli olan "Kommunist" qəzeti bütün Cənubi Qafqazda ən aparıcı bir qəzetə çevrilə bilmişdi. Onun təşəkkül və inkişaf dövrü kifayət qədər mürəkkəb və çətin olmuşdur. Həyatındakı çətinliklərə, yanılmalara və xətalara baxmayaraq, "Kommunist" qəzeti bütün çətinliklərə sinə gərib, özünü qoruya bilmiş, inkişaf etmiş, kütlələrlə geniş əlaqələr yarada bilmişdir. Azərbaycan milli ziyalılarının bir çox nümayəndələri bu qəzetin ətrafında cəmləşmişdi.

"Kommunist" qəzetinin ana dilimizin publisistik və təsvirçilik üslubunun inkişafı və mükəmməlləşməsindəki rolu və xidməti danılmazdır. Jurnalist kadrlarının yetişdirilməsində, savadsızlığın ləğvində və respublikada mədəniyyətin ümumi səviyyəsinin yüksəldilməsində bu qəzet mühüm rol oynamışdır.

Bu gün "Xalq qəzeti" adı ilə nəşrini fasiləsiz davam etdirən 90 yaşlı qocaman qəzetimiz əvvəlki kimi xalqa yüksək səviyyədə xidmət göstərir, müasir dövrün tələbləri ilə ayaqlaşır, nəinki özünün internet nəşrini də davam etdirir, hətta bu nəşrin mühüm materiallarının ingilis və rus variantlarını da yaymaqla dünya oxucularını sürətlə inkişaf edən Azərbaycan Respublikasının gerçəkliklərindən xəbərdar edir.

# ƏLAVƏ
## (müəlliflərin təxəllüsləri)

| | | |
|---|---|---|
| Abbaszadə Bayraməli | – | Hambal.* |
| Ağazadə Firudin | – | Şərqli.* |
| Axundov Ruhulla | – | Məs’ud.* |
| Abbasov Ələkbər | – | Ə.Qərib.* |
| Vahid Əliağa | – | Mürtəd,* Hacı Əqrəb.* |
| Volpyer Evgeni | – | İ.V., Y.V., Yev.V. |
| Qarayev Əliheydər | – | Binəva, Ə.H.Qarayev, Ə.Qarayev. |
| Dadaşzadə M.Ə. | – | Xızılı.* |
| Eminbəyli İ. | – | Əlif Əlif [ا.ا.]. |
| Əyyubi Əsəd | – | Əlif Əlif [ا.ا.], Əkrəm Cənab.* |
| Əsəd Tahir | – | Tamaşaçı. |
| İbrahimov Əlisəttar | – | Ayn.Sin., Ayn.Sin.İbrahimov, İbrahimov. |
| İmamverdiyev Mə’bud | – | Ayn Mim [ع.م.]. |
| Kazımov Akif | – | A.Kazım, A.Kazımov, A.Hüseynoğlu, Ayn [ع.], Ayın [آين.], Ayn Kaf [ع.ک.], Ayın Kaf [آين.ک.], K.Oğlu. |
| Karaqiçev V. | – | V.K., V.Kar., Kar. |
| Kərimov Əli | – | Ə.Kərim, Ə.Kərimzadə, Kərimzadə Ə., Kərim Ə., Ayn [ع.], Ayın [آين.], Ayn Kaf [ع.ک.], Ayın Kaf [آين.ک.], |
| Malışev Aleksandr | – | A. [آ.], A.M. [آ.م.], A.A.M. [آ.آ.م.], Mal. [مال.], Al.M. [آل.م.], Al.M-v, Al.Mal., A.Oviç, Al. O-viç, Aqronom, Aqronom M., Aqronom A.M. |
| Mehdiyev Əliheydər | – | Mehdiyev, Mehdiyev Ə.H. |
| Məlikov Süleyman | – | Məlikov S., S.Məlikov, Əbu-l-hövl,* Qəmişqulu,* Damğa,* Kənardan baxan, D.Oğlu, S.M.Oqlu, S.Məlikzade, M-zadə, M-zadə S., S. |
| Mirbağırov Mir Abbas | – | M.Mirbağırov, Mir Abbas, Mim Ayn [م.ع.] |
| Müznib Əliabbas | – | Babai Əmir,* B.Ə., Mürtəd, Nadinc.* |
| Nağıyev Murtuza | – | Çəkic.* |
| Naumov Sergey | – | Nəimov, S.Nəimov, S.N., Tamasaçı. |
| Ordubadi Məmməd Səid | – | Ordubadi M.S., M.S.Ordubadi, M.S., Felyetonçu,* Hərdəm xəyal,* Xırdavatçı,* Xırım-xırda. |
| Rəcəbli Əhməd | – | D-r, D-r R., R. |
| Sadıqzadə Seyid Hüseyn | – | Hüseyn Sadıq.* |
| Sviridov İvan | – | Sviridov İ., S.İ., İ.S. |

| | | |
|---|---|---|
| Səttaroğlu Balaqədəş Mürşüd | – | Balaqədeş, Mürşüd Səttaroğlu, Mürşid, B.Mürşid, Sam, S-Oğlu M., Təəssübkeş, B.Mürşüd Səttaroğlu, M.Səttaroğlu, S.Oğlu M., Sam [سام], Balaqədeş [بالا قدش] |
| Səfvət Akif | – | A.S., A.Səfvət, Akif. |
| Sidqi Məmmədəli | – | Muəs.* |
| Sultanov Həmid | – | Yoxsul. |
| Triniç Əhməd | – | Ə.Bədi, Triniç, Əhməd Bədi. |
| Fikri Hüseyn | – | İşçi müxbiri. |
| Xəlil İbrahim | – | X., X.İ. [خ.ای.], İ.X. [ای.خ.], Xəlil, Xəlil Əlif [ا.], Xəlil Əlif-Mim [ا.م.], Əlif.X. [ا.خ.], Tamaşaçı. |
| Hacızadə Bağır | – | Hacızadə B.* |
| Hacıyev Ne'mət | – | Ne'mət Bəsir. |
| Heydərli Əliəkbər | – | Adsız.* |
| Cabbarlı Cəfər | – | Cim [جيم],* Cim-Cim [جيم.جيم.],* C. [ج.],* C.C. [ج.ج.],* C.Cabbarzadə,* Cabbarlı C.,* C.Cabbarlı,* C.,* Cim,* C.C.,* Cim Cim.* |
| Cavadzadə S.C. | – | Pişəvəri.* |
| Cavadlı Cəfər | – | C.C. |
| Cəfərov Nağı | – | Oradakı. |
| Şərif Əziz | – | Ayn [ع.], Ayn.Şərif. |
| Şərifov Abdulla | – | Ayn [ع.], Ayn.Şərifov, Ayn.Şərif. |

* Bu işarə ilə qeyd olunan təxəllüslər "Kommunist" qəzetinin tədqiqatçısı C.Məhərrəmli tərəfindən müəyyən edilmişdir (E.M.).

## Mündəricat

Sözönü ........................................................................ 3
1. İlk addımlar ................................................................ 10
2. Redaktorlar ................................................................. 15
3. Qəzetin və redaksiyanın strukturu ....................................... 23
4. Kadr hazırlığı ............................................................... 34
5. Publikasiyanın əsas tematikası ............................................ 36
6. Qəzetin maddi bazası, həcmi, tirajı ...................................... 41
7. Nədən və necə yazmalı? ..................................................... 45
8. Qəzet təsvirçiliyi üslubunun təkmilləşdirilməsi ........................ 48
9. Fəhlə-kəndli müxbirləri hərəkatı .......................................... 50
10. Kəndə doğru ................................................................ 58
11. Qəzetdə dərc olunan material – rəsmi sənəddir ....................... 60
12. Ən yaxşı qəzet hansıdır? .................................................. 66
13. Özü və başqaları haqqında ................................................ 68
14. Dünyada ilk linotip? ....................................................... 71
15. Ən yaxşı qəzet, hər halda... .............................................. 73
16. Digər qəzetlərə yardım .................................................... 75
Əlavə (müəlliflərin təxəllüsləri) ............................................ 84

Kompüter yığımı:  Ruqiyə Talıbova
Kompüter dizaynı: Leyla Əsgərova

Yığılmağa verilmişdir: –  5 oktyabr 2008
Çapa imzalanmışdır:   –  15 avqust 2009

Sifariş: № 201
Formatı: 60/84 – $^{1}/_{16}$. Həcmi: 5,5 ç.v. Tirajı: 500

*Elmar Əli oğlu Məhərrəmov*
*Aynur Elmar qızı Məhərrəmli*

**«Xalq qəzeti»nin ("Kommunist") yaranması və inkişafı tarixindən**. Nəşrinin 90 illiyi münasibətilə

Bakı, Nurlan, 2009